## Bu gün Su çərşənbəsidir



**Bu gün Azərbaycanda ilk çərşənbə - Su çərşənbəsi qeyd olunur.**

Bu çərşənbəsi ilə Novruz bayramına hazırlıqlar başlanır. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur.

Su çərşənbəsi boz ayın dörd müqəddəs çərşənbəsinin ilkidir. Bu çərşənbəni "Yalançı", "Əzəl çərşənbə", "Sular Novruzu" da adlandırırlar. Xalq arasında "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu", "gül çərşənbə" kimi də tanınır.

*Qeyd edək ki, növbəti - Od çərşənbəsi martın 1-i, Yel (Hava) martın 8-i, axırıncı - Torpaq çərşənbəsi isə martın 15-də qeyd olunacaq.*

## Azərbaycanda qısa, orta və uzunmüddətli dövlət qiymətli kağızları buraxılacaq

**Qısa, orta və uzunmüddətli dövlət qiymətli kağızların buraxılışı nəzərdə tutulur.**

Bu, Baş nazir Əli Əsədovun dünən imzaladığı "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Sərəncamda əksini tapıb.

Sərəncama əsasən, Maliyyə Nazirliyinə inflyasiya səviyyəsini nəzərə alaraq qısa, orta və uzunmüddətli dövlət qiymətli kağızların buraxılışı istiqamətində lazımi tədbirlər görülməsinə dair tapşırıq verilib.


№ 33 (5555), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 fevral 2022-ci il (çərşənbə axşamı)





## Prezident İlham Əliyev Rusiyaya rəsmi səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə fevralın 21-də Rusiya Federasiyasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı "Vnukovo-2" Beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi, Azərbaycanın və Rusiyanın dövlət himnləri səsləndirildi.



## Qiymət artımı ticarət əlavələri hesabına sabitləşdiriləcək

**Əsas ərzaq məhsullarının qiymət artımının bazar iqtisadiyyatına uyğun qaydalarla - ticarət əlavələri hesabına sabitləşdirilməsi ilə bağlı İqtisadiyyat Nazirliyinə tapşırıq verilib.**

Bu, Baş nazir Əli Əsədovun dünən imzaladığı "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Sərəncamda əksini tapıb.

Sərəncamda deyilir ki, əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsulları üzrə qiymət artımının ticarət əlavələri hesabına sabitləşdirilməsinə dair təkliflər on beş gün müddətində Nazirlər Kabinetinə təqdim olunmalıdır.

## Azərbaycan və Gürcüstan təhsil haqqında saziş imzalayıb



**Gürcüstanın paytaxtı Tbilisidə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.**

Sənədi Azərbaycanın təhsil naziri Emin Əmrullayev və Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli imzalayıb.

Mixeil Çxenkeli bildirib ki, bu sənəd iki ölkə arasında təhsil və elmin bütün sahələrində əməkdaşlığı gücləndirəcək. O, sənədin eyni zamanda vacib siyasi önəmi olduğunu vurğulayıb.

# Putin açıqladı

## Rusiya qondarma "DXR" və "LXR"in müstəqilliklərini tanıdı



**Rusiya prezidenti Vladimir Putin Almaniya və Fransa liderləri Olaf Şolts və Emmanuel Makrona məlumat verib ki, o, yaxın gələcəkdə qondarma "LXR/DXR" tanınması ilə bağlı müvafiq fərman imzalamaq niyyətindədir. Bu barədə Kremlin rəsmi saytına istinadən xəbər verir.**

Məlumata görə, Rusiya Prezidenti Vladimir Putin Fransa Respublikasının Prezidenti Emmanuel Makron və Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şolz ilə telefon danışığı aparıb. Vladimir Putin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının Donbass ətrafında mövcud vəziyyəti Dövlət Dumasının qondarma "Donetsk və Luqansk Xalq Respublikaları"-nı tanınması ilə bağlı qətnaməsi kontekstində nəzərdən keçirən geniş tərkibli iclasının nəticələri barədə məlumat verib.

Bütün bunları nəzərə alaraq, Rusiya prezidenti yaxın vaxtlarda müvafiq fərman imzalamaq niyyətində olduğunu bildirib.

Fransa prezidenti və Almaniyanın federal kansleri hadisələrin belə inkişafından məyus olduqlarını bildiriblər. Eyni zamanda, onlar əlaqələri davam etdirməyə hazır olduqlarını qeyd ediblər.

**Ən son məlumata görə, Rusiya Prezidenti Vladimir Putin qondarma "Donetsk Xalq Respublikası" (DXR) və "Luqansk Xalq Respublikası"nın (LXR) müstəqilliklərini tanıyıb.**

**Bu barədə Rusiya Prezidenti xalqa müraciətində bildirib.**

**Rusiya lideri həmçinin "DXR" və "LXR" ilə dostluq və qarşılıqlı yardım haqqında sənədləri imzalayıb.**


✓ **Dəhşətli qətlin təfərrüatı məlum olub**
Əhəd Əliyev hadisəni tamah məqsədilə törədib (səh.2)

✓ **Avropada islamafobiya çox ciddi məsələdir**
Burada sadəcə müsəlmanlar hədəfə alınmır, irqçilik, faşizm ənənələri də yenidən bərpa olunur (səh.3)

✓ **Ehtimallar doğrulur**
Müdafiə Nazirliyində həbs olunanların siyahısı genişlənəcək (səh.4)

✓ **Qərb Ukraynaya silah verir, Rusiya isə mesaj...**
Samir Hümbətov: "Tərəflər arasındakı gərginliyin ciddi toqquşmaya səbəb olacağı gözlənilmir" (səh.5)


## Azərbaycan deputatları Paşinyanla görüşüb

### Tahir Mirkişili deyib ki, görüş müsbət atmosferdə keçib

**Dünən AVRONEST Parlament Assambleyasında təmsil olunan Azərbaycan, Gürcüstan, Ukrayna nümayəndələri və Avropa Birliyi tərəfindən həmsədr nümayəndə ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olub.**

Görüşdə Avropa Birliyi-Ermənistan, Azərbaycan-Ermənistan münasibətləri, Ukrayna ətrafında baş verən hadisələr müzakirə olunub.

Bu barədə APA-ya AVRONEST Parlament Assambleyasının üzvü Tahir Mirkişili məlumat verib.

(səh.4)



## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub



**Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Azərbaycan Ordusunun Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində yerləşən mövqeləri fevralın 20-si saat 20:50-də və Xocavənd rayonunun Tağaverd kəndi istiqamətində yerləşən mövqeləri isə fevralın 21-i saat 01:15-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən heç bir səbəb olmadan atıcı silahlardan atəşə tutulub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri ilə qarşı tərəf susdurulub.

## Yoluxanların sayı minə düşdü

### 26 nəfər ölüb, 3 324 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 038 yeni yoluxma faktı qeydə alınıb, 3 324 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 26 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 775 432 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 737 710 nəfər müalicə olunaraq sağalıb, 9 261 nəfər vəfat edib, aktiv xəstə sayı 28 461 nəfərdir.

*Ölkədə son sutka ərzində 5 683, hazırkı dövrədək isə 6 491 040 test aparılıb.*



## "Mütləq Azərbaycan-Gürcüstan müştərək universiteti yaradılmalıdır"

Aygül İsayeva: "Bununla Azərbaycan məktəblərində kadr çatışmamazlığı problemi həllini tapacaq"

(səh.5)

## "Azərbaycan Avropanın maraqlarına ciddi təsir göstərir"

Səməd Seyidov:
"Ona görə də yenidən müqavilə bağlanmasına səy göstərirlər"

(səh.3)



# Azərbaycan-Avropa İttifaqı əlaqələri şaxələndirilmiş xarakter alıb

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərtac xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında konstruktiv dialoqun mövcud olduğunu söyləyən dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə müntəzəm dialoq apardığını xatırlatdı. Prezident İlham Əliyev Prezident Şarl Mişelin Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasına töhfəsini müsbət qiymətləndirdiyini vurğuladı.

**Toivo Klaar Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafından məmnunluğunu ifadə etdi.** Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirak etmək və Azərbaycan- Avropa İttifaqı əlaqələrinə dair müzakirələr aparmaq üçün Aİ-nin iki komissarının bu yaxınlarda Azərbaycana səfər etdiyini xatırladan xüsusi nümayəndə səfər çərçivəsində çox səmərəli müzakirələrin aparıldığını dedi. Toivo Klaar da Prezident Şarl Mişelin Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasına önəmli dəstək verdiyini bildirdi. O, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair yeni saziş üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvar olduğunu dedi.

**Prezident İlham Əliyev Aİ-nin iki komissarının Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirakını müsbət qiymətləndirdiyini və bunun Avropa İttifaqının Azərbaycan ilə münasibətlərə verdiyi önəmin ifadəsi olduğunu bildirdi.** Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin şaxələndirilmiş xarakter aldığını və bir çox sahələri əhatə etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyinin bəyan etdiyi kimi Azərbaycana müxtəlif layihələrin dəstəklənməsi üçün iki milyard avro dəyərində güzəştli kredit xəttinin ayrılmasının da əlaqələrimizin müsbət inkişafının göstəricisi olduğunu bildirdi.

**Dövlətimizin başçısı ötən ilin dekabrında Prezident Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Ermənistanın baş nazirinin də iştirakı ilə keçirilən görüşün əhəmiyyətini vurğuladı.** Brüssel gündəliyinin önəmini diqqətə çatdıran Prezident İlham Əliyev bu xüsusda müzakirələrin və praktiki işin aparılmasının vacibliyini qeyd etdi, həmçinin Azərbaycana minaların təmizlənməsi prosesində veriləcək dəstəyin təqdir olunduğunu dedi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığa dair saziş üzrə danışıqların intensiv şəkildə aparılması və onun tez bir zamanda yekunlaşdırılması üçün müvafiq qurumlara tapşırıqların verildiyini diqqətə çatdırdı. Birinci Ermənistan-Azərbaycan müharibəsi zamanı dörd mindən artıq insanın itkin düşdüyünü xatırladan Prezident İlham Əliyev ötən il Brüsseldə və cari il fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dördlü formatda keçirilən görüşlərin nəticəsi olaraq itkin düşmüş şəxslərin taleyinin və onların basdırıldığı kütləvi məzarlıqların müəyyən edilməsi məsələsində Ermənistan tərəfinin konstruktiv formada davranmasının vacibliyini diqqətə çatdırdı.

*Görüşdə, həmçinin Ermənistan-Azərbaycan arasında kommunikasiyaların bərpası, sərhədlərin delimitasiyası və digər prinsipial məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.*



## Vaxt daralır

### Pentaqon: Diplomatiya üçün səy göstərilməlidir

**ABŞ Rusiyanın Ukraynanı işğal edə biləcəyi ehtimalını istisna etmir.**

APA-nın xəbərinə görə, bu barədə ABŞ Müdafiə Nazirliyinin rəsmisi Con Kirbi deyib.

"Biz bir müddətdir ki, Rusiyanın Ukraynanı istənilən vaxt işğal edə biləcəyini deyirik. Bu gün həmin gün ola bilər. Biz ümid edirik ki, bu baş verməyəcək", - deyə Pentaqonun mətbuat katibi Con Kirbi deyib.

O qeyd edib ki, diplomatik yolun izlənməsi üçün bütün səylər göstərilməlidir və Rusiya Prezidenti Vladimir Putinin doğru qərar qəbul etməsi, Avropada növbəti müharibənin baş verməsinin qarşısının alınması üçün diplomatiyanın davam etdirilməsi fürsəti hələ də var.

"Lakin vaxt daralır", - Pentaqon sözçüsü vurğulayıb.

## Azərbaycanda qiymət manipulyasiyasına nəzarət gücləndiriləcək



**İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi və digər müvafiq qurumlar ölkədə sağlam rəqabət mühitinin gücləndirilməsi, o cümlədən inhisarlaşma, bazarların bölüşdürülməsi, razılaşdırılmış qiymətlərin tətbiq edilməsi hallarının və qiymət manipulyasiyasının qarşısının alınması üçün aparılan nəzarət tədbirləri barədə ayda bir dəfə Nazirlər Kabinetinə məlumat verəcək.**

Bu, Baş nazir Əli Əsədovun bu gün imzaladığı "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Sərəncamda əksini tapıb.

İqtisadiyyat Nazirliyinə tapşırılıb ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə minimum istehlak səbətinin tərkibində ərzaq malları üzrə daxili bazarda özünütəminat səviyyəsinin qorunmasına dair lazımi tədbirlər görsün.

## Putin Paşinyanı Rusiyaya rəsmi səfərə dəvət edib

**Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub.**

APA-nın Moskva müxbirinin Kremlin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, telefon danışığı zamanı Qarabağla bağlı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlarının icrası müzakirə olunub.

Putin Paşinyanı Rusiyaya rəsmi səfərə dəvət edib.



## Ermənilərdən növbəti düşmənçilik nümayişi

### Azərbaycan deputatlarının səfərinə görə yolu bağladılar



**Ermənistanda özlərini müharibə iştirakçıları adlandıran bir qrup şəxs Azərbaycan Milli Məclisinin deputatlarının İrəvana gəlişinə etiraz olaraq Zvartnots" Beynəlxalq Hava Limanına gedən yolu bağlayıblar.**

Trend xəbər verir ki, onlar Azərbaycan nümayəndə heyəti üzvlərinin İrəvana səfərinin əleyhinə olduqlarını bildiriblər.

*Qeyd edək ki, Avronest Parlament Assambleyasının iclasında Azərbaycan nümayəndə heyəti iştirak edəcək. Bununla bağlı Milli Məclisin deputatları Tahir Mirkişili və Soltan Məmmədov İrəvanda səfərdədirlər. Deputatlarımız iclaslarda müzakirə olunacaq məsələlərə Azərbaycan tərəfinin mövqeyini bildirəcəklər.*

# Diasporamız gücünü birləşdirməlidir

## Ceyhun Məmmədov: "Erməni fondlarının cinayətkar fəaliyyətini dayandırmaq üçün ciddi addımlar atılmalıdır"

**"Erməni Fondlarının cinayət əməllərinin qarşısı qətiyyətlə alınmalıdır". Bunu "Şərq"ə açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, Azərbaycan tərəfinin hazırladığı "Ermənistan tərəfindən qeyri-kommersiya təşkilatları və xeyriyyə qurumlarından korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə suiistifadə edilməsi" adlı hesabat BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb:**



"Hesabatda Ermənistan hökumətinin erməni diaspor təşkilatları vasitəsilə humanitar yardım adı altında, beynəlxalq maliyyə ödənişi sistemlərindən istifadə etməklə qanunsuz ianə toplanması kampaniyalarının təşkil etdiyi bildirilib. Həmçinin, həmin kampaniyalar çərçivəsində yığılan vəsaitin Azərbaycanın suveren əraziləri daxilində onun mülki əhalisinə qarşı terror fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə xərclədiyi qeyd olunub. Ermənistanın dövlət rəsmilərinin bəyanatları və erməni ictimai mənbələrinin məlumatları əsasında hazırlanmış hesabatda təkcə Vətən müharibəsi dövründə 73 ölkədə yaşayan erməni diaspor təşkilatları tərəfindən 170 milyon ABŞ dollarından artıq vəsaitin toplandığı əks olunub. Bunun 110 milyon dolları müharibə xərclərinin ödənilməsi məqsədilə Ermənistanın dövlət büdcəsinə köçürüldüyü qeyd edilib. Artıq bu faktlar BMT səviyyəsində də qəbul ediləək yayıldı. Bu hesabat bir daha onu göstərir ki, Ermənistan dövlət səviyyəsində terror və qətl siyasəti həyata keçirir. Hesabatın yayılması Azərbaycanın növbəti diplomatik qələbəsidir".

**C.Məmmədov vurğulayıb ki, "Hayastan All Armenian Fund" fondu illərdir Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi vəhşiliyi, barbarlığı, işğalı maliyyələşdirən əsas qurumlardan biridir:** "30 ildir bu fond ayrı-ayrı ölkələrdə topladığı maliyyə yardımlarını Ermənistana ötürür. Artıq hesabatdan bu cinayətlərin qarşısının alınması və durdurulmasına keçmə vaxtıdır. Bu fond hansı ölkədə fəaliyyət göstərirsə həmin ölkədə onun fəaliyyəti qadağan olunmalıdır. Buna kifayət qədər hüquqi əsaslar var. Sənəddə aydın əksini tapıb ki, bu fond digər xalqlara qarşı cinayətlərin maliyyələşdirilməsi ilə məşğuldur. Belə fondun fəaliyyətinə göz yummaq özü də cinayətdir. Cinayətlə məşğul olduğu bilinən fondun fəaliyyətinə göz yumduqca bu cinayətlər davam edəcək. Yenə də müharibələr davam edəcək, yaşlı insanlar, qadın və uşaqlar yenə bu cinayətlərin qurbanlarına çevriləcək. Hesab edirəm xaricdəki səfirliklərimiz, diaspora təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə həmin sənədi daha geniş yaymalı, fondun cinayətləri barədə aktiv təbliğat aparmalıdırlar. Fondun fəaliyyətinin dayandırılması istiqamətində ciddi addımlar atmalıdırlar".

İsmayıl

# "Dərin islahatlar yeni şərtlər formalaşdırır"

## Hikmət Babaoğlu: "Prezidentin tapşırıqları bütün məmurlar üçün bir fəaliyyət istiqaməti olmalıdır"



**"Prezident İlham Əliyev icra başçısı vəzifəsinə yeni təyinatlar zamanı etdiyi çıxışında idarəetmədə müasir məqsəd və vəzifələrin nədən ibarət olduğunu izah edərkən üç mühüm prinsip üzərində dayandı". Bu barədə "Şərq"ə millət vəkili Hikmət Babaoğlu deyib.**

Deputat bildirib ki, bunlardan birincisi idarəetməni həyata keçirərkən vətəndaşın rəğbətinin qazanılması, yəni vətəndaş məmnunluğudur. İkincisi, hər bir məmurun xalqın xidmətçisi olması, üçüncüsü isə vəzifənin yüksək imtiyaz deyil, yüksək məsuliyyət olması ilə bağlı idi: "Əslində bu üç prinsip müasir məmur obrazının fəaliyyət kodeksi kimi də səciyyələndirilə bilər. Doğrudan da təkcə bu üç mühüm keyfiyyətə sahib olmaq, ya da bu üç prinsip əsasında fəaliyyət qurmaqla müasir idarəetmədə ən yaxşı nəticələr əldə etmək mümkündür. Elə Azərbaycan cəmiyyətinin də məmurlardan gözləntisi yuxarıda göstərilən prinsiplərdən irəli gələn vəzifələrin icra edilməsi ilə bağlıdır. Çox təəssüf ki, biz hələ də bəzi hallarda vəzifəni məsuliyyət kimi yox, xüsusi imtiyaz kimi dərk edən və vəzifə səlahiyyətlərini öz maraqlarına həyata keçirmək üçün vasitə kimi görən məmurlarla da rastlaşırıq. Eyni zamanda həm də onun şahidi oluruq ki, bu tip məmurlar tutduqları vəzifədən asılı olmayaraq, qanunlar qarşısında cavab verməli olurlar. Bu isə nəticə etibarilə həm məmurların şəxsi faciəsinə, həm də ictimai etimadın zədələnməsinə, məmura, yaxud dövlət səlahiyyətlisinə qarşı inamsızlığa gətirib çıxarır. Nəticədə isə uduzan bütün tərəflər olur".

**H.Babaoğluna görə, Prezident İlham Əliyevin tapşırıqları təkcə yeni təyin olunan icra başçıları üçün deyil, bütün məmurlar üçün bir fəaliyyət istiqaməti təşkil etməlidir:** "Prezident eyni zamanda hazırkı yeni çağırışlar kontekstində rayonlarımızda iş yerlərinin yaradılması, işgüzar mühitin formalaşdırılması, sahibkarların fəaliyyətinin və onların təşəbbüslərinin dəstəklənməsinin də vacib olduğunu vurğuladı. Bu istiqamətdə mühüm addımların atılmalı olduğunun zərurətindən danışdı. Ölkəmizdə həyata keçirilən dərin islahatların yeni şərtlər formalaşdırdığını və bu imkanların yaratdığı yeni fürsətlərin lazımınca qiymətləndirilməsinin vacibliyini qeyd etdi. Bütün bunlar isə məmur ordusu qarşısında necə böyük vəzifələrin dayandığı və onların uğurlu həllinin isə sosial-iqtisadi inkişafımıza necə böyük töhfələr verə biləcəyini göstərmiş oldu. Şübhəsiz, bütün bunlar milli inkişafımızın yeni mərhələsi üçün də əsas prioritetləri təşkil edən istiqamətlərdir".

## Gülnarı izləyib, evə girib, uşaqların boğazını kəsib...



**Bakıda dünən baş verən dəhşətli qətl hadisəsinin - ana və iki azyaşlı övladının öldürülməsinin bəzi təfərrüatı məlum olub.**

APA-ın məlumatına görə, fevralın 20-də saat 14 radələrində Bakının Nizami rayonu, R.Rüstəmov küçəsindəki kirayədə yaşadıqları evdə qətlə yetirilən Sabirabad rayonunun Ulacalı kənd sakinləri, 39 yaşlı Gülnar Qaraxanova, övladları 13 yaşlı Lamiyə Qaraxanlı və 10 yaşlı Atakan Qaraxanlı dünən dəfn olunublar.

Dəfn mərasimi Sabirabadın Ulacalı kəndində baş tutub.

# Dəhşətli qətlin təfərrüatı məlum olub

## Əhəd Əliyev hadisəni tamah məqsədilə törədib



Mərhumun ailə üzvləri qətlin təfərrüatını danışıblar. Məlumata görə, ailə başçısı olan Fəsahət Qaraxanov beynəlxalq yükdaşıması ilə məşğuldur, TIR sürücüsü kimi fəaliyyət göstərir. Qətl anında Rusiyada olub və dünən səhər Rusiya-Azərbaycan sərhədini keçərək dəfn mərasiminə gəlib.

Qətli törədən, əvvəllər Saatlı rayonunun Novruslu kəndindəki doqquz illik məktəbin direktoru olan Əhəd Əliyev mərhum Gülnar Qaraxanovanın bacısının əridir. Məlumatlara görə, ailə başçısının qazancından, ailənin ev almaq üçün pul yığdığından xəbərdar olan Əhəd Əliyev qətli məhz tamah məqsədilə törədib.

Mərhumun bibisi oğlu Şahlar Məlikovun bildirdiyinə görə, Əhəd Əliyev küçədə Gülnar Qaraxanlını izləyib, onun arxasınca evə girib və boğazını kəsmək istəyib. Bu zaman onunla əlbəyaxa olan G.Qaraxanova başından bıçaq zərbəsi alıb. Hadisə baş verəndə uşaqlar evdə olublar. Qadına yeddi bıçaq vurulub, uşaqların isə boğaz nahiyəsi kəsilib. Qətli törədən şəxsin qıza əlavə beş bıçaq da vurduğu bildirilir.

O da məlum olub ki, həbs olunanda Ə.Əliyevin üstündə 20 min manat pul olub. Onun evdən götürdüyü 40 min manatın 20 min manatı isə yoxdur. Bunun da istintaq orqanları tərəfindən araşdırıldığı bildirilir.

# Bu gün Rusiya ilə Müttəfiqlik Bəyannaməsi imzalanacaq

Prezident İlham Əliyev Putinlə Moskvada bir çox ciddi məsələləri müzakirə edəcək



"Böyük ehtimalla, yeni sənəddə daha çox hərbi-texniki əməkdaşlıq və iqtisadi məsələlərə dair yeni tezislər yer alacaq"

**Fevralın 22-də Rusiya Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti İlham Əliyev arasında danışıqlar olacaq. Bu barədə Kreml məlumat yayıb. Vurğulanıb ki, danışıqlarda siyasi, iqtisadi-ticari və humanitar sahələrdə ikitərəfli münasibətlərin sonrakı inkişafı üçün bütün kompleks məsələlərin müzakirəsi nəzərdə tutulur.**

Bundan başqa, görüşdə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Qarabağ üzrə 10 noyabr, 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının reallaşması, Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası tədbirləri müzakirə olunacaq. Danışıqların yekunu olaraq, iki ölkə arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin imzalanması nəzərdə tutulur. Xatırladaq ki, yanvarın 18-də Putinlə Prezident İlham Əliyev arasında telefon danışığı olmuşdu. Söhbət zamanı dövlət başçıları Azərbaycan-Rusiya arasında strateji tərəfdaşlıq perspektivlərini müzakirə etmişdilər.

**Liderlərin gözlənilən görüşü barədə "Şərq"ə danışan siyasi şərhçi Aqşin Kərimov deyib ki, Azərbaycan Rusiya ilə tərəfdaş idi və bu tərəfdaşlıq konsepsiyası əsasında müttəfiqlik inşa olunacaq. Yəni tərəfdaşlıq güclənəcək:** "Bu, strateji müttəfiqlik deyil. Bir dövlətlə imzalanan sənəd digər dövlətlə imzalanan sənədi qüvvədən salmır. Postmüharibə dövrü əvvəlki əlaqələri təravətləndirmək üçün yeni tezislərə ehtiyac duyur. Bu, dövlətin həm də özünümüdafiə refleksinin işə salınmasıdır. Böyük ehtimal, yeni sənəddə daha çox hərbi-texniki əməkdaşlıq və iqtisadi məsələlərə dair yeni tezislər yer alacaq".

**Politoloq Məhəmməd Əsədullazadə isə "Şərq"ə deyib ki, Prezident İlham Əliyevin Rusiyaya gözlənilən səfərində Qarabağda sülhməramlıların fəaliyyəti və silahlı erməni birləşmələrinin çıxarılması məsələsinin müzakirə predmeti olacağı istisna edilmir:** "Ermənilərin separatçı fəaliyyəti açıq müstəviyə keçib. Azərbaycanın hərbi mövqeləri atəşə tutulur və separatçılar ölkəmiz əleyhinə açılamalar verir. Buna da Rusiya tərəfi şərait yaradır. Görüşdə Laçın dəhlizindən yeni yolun çəkilməsi və Azərbaycan postunun bu yolda olması da gündəliyə çıxarılmalıdır. Moskvanın mövqeyindən asılı olmayaraq, buna gedilməlidir. Rusiya ilə ciddi danışmasaq, Kreml Qarabağda Azərbaycana problemlər yaradacaq. Artıq problemlər ortaya çıxmaqdadır. Prezident İlham Əliyev Putinlə bu məsələləri müzakirə edəcək. Moskvanın Azərbaycanın qələbəsinə kölgə salmağa ixtiyarı yoxdur".

**İsmayıl Qocayev**



# Ən çətin günlərdə ön cərgədə olub

Mehriban xanımın gördüyü işlər göz qabağındadır

**Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi fəaliyyətə başlamasından 5 il ötür.**

Heç kimə sirr deyil ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi əsas diqqətini sosial məsələlərin, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həlli üzərində cəmləşdirib. Şəhid ailələrinin, müharibə əlillərinin, məcburi köçkünlərin, sağlamlıq imkanları məhdud uşaqların, aztəminatlı ailələrin qayğıları daim onun diqqət mərkəzində olub. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunana qədər fəaliyyəti, xüsusən də Heydər Əliyev Fondunun Pezidenti olaraq həyata keçirdiyi çoxsaylı praqmatik layihələr məhz onun qayğıkeş və xoş niyyətindən xəbər verirdi. Birinci vitse-prezident UNESCO-nun və İSESCO-nun sülhməramlı səfiri kimi ölkəmizi Avropa və Asiyada uğurla təmsil edib, edir. Onun Azərbaycanda keçirilən Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Avroviziya kimi beynəlxalq idman və musiqi tədbirlərində yüksək təşkilatçılıq bacarıqları nəticəsində Azərbaycanın dünyada imici və reputasiyası daha da güclənib.

İctimaiyyət nümayəndələri Birinci vitse-prezidentin 5 illik fəaliyyətini yüksək qiymətləndirib

**Birinci xanımın ötən beş ildəki fəaliyyəti ilə bağlı hüquq müdafiəçisi Novella Cəfəroğlu və KVN teatrının bədii rəhbəri, Əməkdar artist Tahir İmanov "Şərq"ə danışıblar.**

**N.Cəfəroğlu bildirib ki, Mehriban xanım Əliyeva İkinci Qarabağ savaşından sonra mütəmadi olaraq qazilərlə görüşlər keçirib:**

"O, ölkəmizdə yeni məktəblərin, xəstəxanaların inşa olunmasına xüsusi diqqət ayırıb. Mehriban xanımın görüdüyü işlər göz qabağındadır. Ölkənin ən çətin günlərində onu hər zaman ön cərgələrdə görürük. O siyasi baxışından asılı olmayaraq hər kəsə yardım edən şəxsiyyətdir. Təbii ki bütün insanlara yardım etmək mümkün deyil. Amma mən özüm şahidi olmuşam ki, Mehriban xanım Əliyeva daim insanlara yardıma təşəbbüs göstərib".

**Tahir İmanov isə Birinci vitse-prezidentin fəaliyyətindən danışarkən 2019-cu ildə Prezident İlham Əliyevin mədəniyyət işçiləri ilə görüşünə diqqət çəkib:**

"Həmin görüşdə Mehriban xanım da iştirak edirdi. Həmin görüşdən sonra uzun müddətli qadağalardan sonra bizim efirlərə çıxmağımıza qoyulan məhdudiyyətlər aradan qaldırıldı. Bu işdə də Mehriban xanımın çox böyük rolu oldu. Bizim üçün bu önəmli idi. Biz hər zaman ölkə rəhbərliyini, eləcə də Birinci vitse-prezidentin dəstəyini hiss etmişik. Düşünürəm ki, onun fəaliyyətinin bundan sonrakı mərhələsində də mədəniyyət sahəsinin rifah və inkişafı yolunda ölkəmizdə yaxşı işlər görüləcək".

**Günəş Mərd**

# Gərginlik ölkəni çökdürüb

Ukrayna iqtisadiyyatı hər ay 2-3 milyard dollar itirir

**Ukrayna ətrafında yaranan gərginliklə bağlı xəbərlərin yayılmasından sonra ölkə iqtisadiyyatına hər ay 2-3 milyard dollar zərər dəyir.**

Azərtac Ukrayna KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Prezident Vladimir Zelenskinin ofisindən bildiriblər.

"Belə gərgin vəziyyətdə itkilərin ayda 2-3 milyard dollar olduğunu görürük. Buraya dayandırılmış investisiyalar və əlavə inflyasiya, həmçinin turizm sektorunda itkilər və aviasiya daşımalarında azalma da daxildir. Maliyyə bazarlarına spekulyativ təzyiqlər məzənnəyə təsir göstərir ki, bu da əlavə 1,5-2 milyard dollar təşkil edir. Planlaşdırılan dövlət proqramlarını davam etdirmək üçün 4-5 milyard dollar kifayət edər. Lakin xarici vəziyyət hər an dəyişə bilər", - deyə ofis rəhbərinin müavini Rostislav Şurma qeyd edib.



Bir müddət öncə Ali Radadakı "Xalqın xidmətçisi" partiyası fraksiyasının rəhbəri David Arahamiya dünya mediasını saxta məlumatlar yaymaqda ittiham edərək Ukrayna iqtisadiyyatının vəziyyətin gərginləşməsi ilə bağlı təlaş keçirdiyini bildirmişdi. Ukraynanın maliyyə naziri Sergey Marçenko isə öz növbəsində dövlət maliyyəsi ilə bağlı vəziyyətin nəzarət altında olduğunu və hökumətin bütün xərcləri tam həcmdə ödədiyini demişdi.

# "Azərbaycan Avropanın maraqlarına ciddi təsir göstərir"

Səməd Seyidov: "Ona görə də yenidən müqavilə bağlanmasına səy göstərirlər"



**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar bu gün Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla görüşüb. O qeyd edib ki, Avropa İttifaqının bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazırdır.**

T.Klaar Azərbaycana səfəri çərçivəsində ANAMA ilə görüşün nəzərdə tutulduğunu və minaların təmizlənməsi prosesinə yardımın artırılması imkanlarının nəzərdən keçirildiyini söyləyib.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan regionda öz müqəddəratını həll edir. Artıq öz istəklərinə addım-addım yaxınlaşır. Avropa ölkələri ölkəmizlə danışıqlar aparır, müəyyən razılaşmalar əldə edir, siyasi gedişlər həyata keçirilir.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən millət vəkili, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, xarici işlər nazirliyində keçirilən görüş ona dəlalət edir ki, bizim Avropa Birliyi ilə əlaqələrimiz yüksələn xətlə inkişaf edir:**

"Bu, çox məntiqlidir. Ona görə ki, xüsusilə, müharibədən sonra Azərbaycan fərqli və güclüdür. Regionda söz sahibiyik. Dövlətimiz elə geosiyasi mövqeyə malikdir ki, onsuz hər hansı məsələlər həyata keçirilə bilməz. Nəzərə alsaq ki, region AB üçün strateji əhəmiyyət kəsb edir. Bu ilin fevralın 4-də Cənub Qaz Dəhlizi ilə bağlı Azərbaycanda iclas keçirildi. Biz görüb və eşitmişik ki, tədbirə bir Avropa emisarı gələr. Amma iki emisar iştirak edib. Bu, Azərbaycanın roluna və çəkisinə dəlalətdir. Bu, birinci məsələdir. İkinci məsələ isə bu gün Azərbaycanın nümayiş etdirdiyi davranış, yəni siyasəti, ölkələrlə münasibəti ilk öncə Avropanın özünə lazımdır".

**Parlamentari xarici dövlətlərin Azərbaycan Prezidenti cənab İlham Əliyevlə siyasi cəhətdən məsləhət almalarını vurğulayıb:**

"NATO-nun baş katibi Stoltenberq Azərbaycanın yox, Avropanın problemləri ilə bağlı Prezident İlham Əliyevə zəng edib. Polşa rəsmiləri də ölkə rəhbərimizlə telefon görüşündə olub. Prezidentimizin Ukrayna və Rusiya səfəri də göstərir ki, ölkəmiz Avropanın maraqlarına ciddi təsir göstərir. Bu təsir müsbətdir ki, Aİ nümayəndələri ölkəmizin bu siyasəti davam etdirməsi istiqamətində dəstək verməyə hazır olublar. Burada bir neçə məqam da var. Məsələn, minaları təmizləmək üçün maddi yardım, itkin düşmüş insanlarla bağlı Ermənistanın cavabı, konkret maliyyə institutlarının Azərbaycanla işləməyə başlaması və s. Həmçinin rəsmi İrəvanla sülh müqaviləsinin bağlanması, delimitasiyanın aparılması da bura daxildir. AB-nin və Avropa ölkələrinin maraqlarına, inkişafına, təhlükəsizliyinə təsir göstərən məsələlərdir. Ona görə də yenidən müqavilə bağlanmasına səy göstərirlər".

**Millət vəkili qeyd edib ki, 44 günlük Vətən müharibəsindəki qələbəmiz dünyadakı prosesləri dəyişib:**

"İllərdir, Türkiyə və Ermənistan arasında münasibətlər yox idi. İndi isə bu əlaqələr formalaşmağa başlayıb. Eyni zamanda İsrail və İranla münasibətlərimiz yaxşılaşıb. Şərqlə əlaqələr ən yüksək səviyyədədir. Qoşulmama Hərəkatına rəhbərlik etməsi ölkəmizin inkişafını göstərir. Ona görə də Ermənistana kənar amillər təsir göstərir və Qarabağda separatçılar, revanşist qüvvələr yetişdirilir".

**Cəmilə Əzim**




# Avropada islamafobiya çox ciddi məsələdir

Burada sadəcə müsəlmanlar hədəfə alınmır, irqçilik, faşizm ənənələri də yenidən bərpa olunur

**Türkiyə mətbuatında Prezident Rəcəb Tayyib Ərdoğanın sözçüsü, professor İbrahim Kalının "Avropada irqçilik normallaşır" başlıqlı məqaləsi dərc olunub. Müəllif yazıda Qərb ölkələrində irqçiliyin yayılması, müsəlman mühacirlərə qarşı həyata keçirilən ayrı-seçkilik, Avropa ölkələrində ksenofobiyanın siyasətçilər tərəfindən alət kimi istifadə olunmasına toxunub.**

Son dövrlər islam dininə və müsəlmanlara qarşı ardıcıl baş vermiş təxribatları sadalayıb. Qeyd edib ki, 2020-ci ilin 19 fevral tarixində Almaniyanın Hanau şəhərində əcnəbi ölkələrdən gələn şəxslərin işlətdiyi kafedə partlayış törədilib. Hadisə nəticəsində dördü türk olmaqla doqquz günahsız insan həyatını itirib. Bu dəhşətli hadisə son illərdə xüsusilə müsəlmanları hədəf alan cinayətlərdən yalnız biridir. Kollektiv xərçəngə çevrilən irqçiliyin Qərb ölkələrində yayılma sürəti narahatedici səviyyəyə çatıb. Ən dəhşətlisi isə odur ki, bu təhlükəli ideologiya fikir müxtəlifliyi kimi təqdim olunur. İrqçi terror aktlarının təməlləri uzun illər ərzində işlənilib. Son illərdə Qərb ölkələrində fərdi cinayətlər kimi təsnif edilən irqçi terror aktları nəticəsində məscid və sinaqoq kimi ibadət yerləri zərər görür. Həmçinin, müsəlmanlar və dünyanın müxtəlif ölkələrindən Almaniyaya gələn mühacirlər ictimai və sosial həyatda fiziki hücumlara məruz qalırlar. Son beş il ərzində Qərb ölkələrində irqçi terror aktlarında 3-dəfə artım qeydə alınıb. Təsadüfi deyil ki, irqçi hücumların artması, xüsusilə Avropada irqçi partiyaların güclənməsi, irqçi ritorikanın mediada və ictimai rəydə daha çox irəli çəkilməsi ilə eyni vaxta təsadüf edir. Bu qanlı insidentlərin fərdi cinayətlər kateqoriyasına aid edilməsi isə oxşar hərəkətə hazırlaşan insanları və qrupları daha da həvəsləndirməkdədir. Xüsusən Avropada müsəlman əhalinin artmasına səbəb olan mühacir hərəkatı, köhnə qitənin tarixində möhkəm təməlləri olan irqçilik ideologiyasının yenidən tərəfdar toplaması ilə nəticələnib. Müşahidə edilən odur ki, İslam və ksenofobiya Avropa ziyalıları, orta və yuxarı təbəqə arasında sürətlə yayılır, beynəlxalq siyasətin formalaşdırılmasında istifadə olunur. Ən üst səviyyələrdə iddia olunur ki, guya, islam dini avropalı kimliyi ilə bir araya sığmır. Bu əsas götürülərək immiqrantlar arasında fərq qoyulur və xaricdən gələn insanların təsnifləndirilməsi həyata keçirilir. Avropada islam "Avropalaşma"nın qarşısında güclü maneə kimi təqdim edilir. Assimilyasiya müzakirələri ortaya çıxır. Müsəlman kimliyini qoruyub saxlamaqda israrlı olanlar, "arzuolunmaz mühacir" kimi cəmiyyətdən təcrid edilir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, İbrahim Kalının gündəmə gətirdiyi - Avropada islamafobiya çox ciddi məsələdir. Professorun sözlərinə görə, Avropada sadəcə müsəlmanlar hədəf alınmır, eyni zamanda irqçilik, faşizm ənənələri də yenidən bərpa olunur:** "XIII-XIV əsrlərdə İspaniyadakı müsəlman Kordova xilafətinə qarşı xaç yürüşləri ilə Avropada müsəlmanlara savaş açıldı. Sonrakı dönəmlərdə irqçiliyin və islamafobiyanın aparıcı qüvvəsi kimi kilsələr çıxış etməyə başladı. İndi həmin məsələlər müasir Avropada yeni formada təzahür etməyə başlayıb. Artıq bununla xüsusi məşğul olan kilsədən kənar qüvvələr də var. Ötən əsrin 30-40-cı illərində meydana çıxmış faşizm yenidən nasizm kimi baş qaldırıb. Almaniya islamafobiyada tək deyil, Hollandiya, Belçika və Fransa da bu işin içindədir. Cənubi Avropa ölkələri islam mədəniyyətinə yaxşı bələd olduğuna görə, müsəlmanlara kinləri çox deyil. Amma Mərkəzi və Şimali Avropa ölkələri həddindən artıq anti-İslam mövqeyindədirlər. Kilsə ilə bərabər London, Paris klubları da aktivdir. Onların arxasında isə masson qruplaşmaları dayanır. Dünyanın yenidən bölüşdürülməsində islam aləmini, müsəlmanları kənarlaşdırmaq məqsədi güdülür. Avropadan müsəlmanların sıxışdırılıb çıxarılması planları həyata keçirilməkdədir. Son zamanlar Avropa xalqları arasında islam dini geniş yayılmaqdadır. Qitənin islamlaşmasının qarşısını almağa çalışırlar. Avropada müsəlmanlara qarşı teraktlar arta bilər. Qitənin bir neçə ölkəsində ciddi qarşıdurmalar gözlənilir".

**İsmayıl Qocayev**



# Böyük Britaniya rəsmi Bakının dostudur

## Bu ölkə hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və bütün beynəlxalq təşkilatlarda rəsmi Bakının mövqeyini dəstəkləyib

**Prezident İlham Əliyev Böyük Britaniyanın Baş naziri Boris Consona diplomatik əlaqələrin 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərib. Məktubda vurğulanıb ki, Azərbaycan Birləşmiş Krallıq ilə dostluq və əməkdaşlığa xüsusi əhəmiyyət verir. Qeyd edilib ki, son otuz ildə ölkələrimiz arasında qarşılıqlı inam və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz dinamik şəkildə inkişaf edib:**

"Bu dövr ərzində iqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Birləşmiş Krallıq bugünədək Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayələr yatırıb. Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biri olan ölkənizi təmsil edən 600-ə yaxın şirkət Azərbaycanda bir sıra vacib layihələrə cəlb olunub və uğurla fəaliyyət göstərirlər".
Dövlət başçısı enerji sahəsində sınaqdan çıxmış çoxillik strateji tərəfdaşlıq münasibətlərinə də toxunub: "1994-cü ildə "Əsrin müqaviləsi" ilə əsası qoyulmuş enerji sahəsindəki əməkdaşlığımızın bu gün də müvəffəqiyyətlə davam etməsi səmərəli işgüzar əlaqələrimizin və qarşılıqlı etimadın təzahürüdür. Neft-qaz hasilatında etibarlı tərəfdaşımız olan BP şirkəti ilə strateji əməkdaşlığımız məmnunluq doğurur. Cənub Qaz Dəhlizinə Birləşmiş Krallığın verdiyi dəstəyi yüksək qiymətləndirir, layihənin inşasının uğurla başa çatması münasibətilə təbriklərimi yetirirəm. Eyni zamanda biz Birləşmiş Krallığın şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni alqışlayır, bu ərazilərin yenidənqurulması və bərpası işlərində yaxından iştirakını təqdir edirik. İnanıram ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı əməkdaşlıq bundan sonra da birgə səylərimizlə inkişaf edəcək və genişlənəcəkdir".

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Boris Conson da Prezident İlham Əliyevə məktub ünvanlayıb. Baş nazir bəyan edib ki, Britaniya Azərbaycanın sarsılmaz tərəfdaşıdır. Qeyd olunub ki, Böyük Britaniya ölkələrimiz arasındakı əlaqələrə xüsusi əhəmiyyət verir: "Son 30 il ərzində Böyük Britaniya və Azərbaycan Respublikası mühüm strateji tərəfdaşlığın inkişafı etdirilməsi üçün birgə çalışıblar. İnvestisiya və ticarət artmaqda davam edir, təhsil və mədəni əlaqələrimiz son dərəcə sıxdır. Biz iqlim dəyişikliyi və təmiz enerji, regional təhlükəsizlik, qadın və qızlara dəstək daxil olmaqla mühüm məsələlər üzrə getdikcə daha böyük dəyər qazanan əməkdaşlığa nail olmuşuq. Böyük Britaniya Azərbaycan Respublikasının sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da olacaq".

**İki ölkənin əməkdaşlığı barədə "Şərq"ə danışan politoloq Tural İsmayılov bildirib ki, Azərbaycan Böyük Britaniya ilə münasibətlərinin ən yüksək dövrünü yaşayır. Ekspert vurğulayıb ki, Əsrin Müqaviləsi imzalanan gündən bu yana iqtisadi sahədə güclənən əlaqələrimiz sonrakı illərdə siyasi mənada daha da dərinləşib:** "44 günlük Vətən müharibəsində Böyük Britaniyanın mövqeyi bizim üçün müstəsna əhəmiyyətə malik idi. Bu ölkə hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və bütün beynəlxalq təşkilatlarda rəsmi Bakının mövqeyini dəstəkləyib. Böyük Britaniyadakı bəzi siyasi qruplaşmalar tərəfindən Azərbaycana qarşı müəyyən informasiya hücumları baş versə də, bunlar Londonun mövqeyini əks etdirmir. Britaniyanın rəsmi mövqeyi Baş nazir Boris Consonun təbrik məktubunda öz əksini tapıb. 30 il ərzində iki ölkənin əməkdaşlığı xüsusi dəyər qazanıb. Nəzərə alaq ki, Böyük Britaniya anqlosakson təfəkküründə müəyyən dəyişiklik edib. Əvvəllər daha çox ABŞ-ın müttəfiqi kimi siyasi səhnədə yer alan London hazırda dünya geopolitikasında müstəqil oyunçu kimi davranır. Böyük Britaniya Avrasiya ilə əlaqələrini inkişaf etdirir. Azərbaycan bölgədə kilid mövqedə yerləşir, Asiya ilə Avropa arasında buffer zona təşkil edir. Bu məqam London tərəfindən müsbət qiymətləndirilir. Yaxın gələcəkdə iki ölkənin əməkdaşlığı daha da dərinləşəcək".

**İsmayıl Qocayev**

# Ehtimallar doğrulur

## Müdafiə Nazirliyində həbs olunanların siyahısı genişlənəcək



**Müdafiə Nazirliyinin daha bir yüksək vəzifəli şəxsi həbs edilib. Hərbi Prokurorluqdakı mənbənin "Qafqazinfo"ya verdiyi özəl məlumata görə, Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi, polkovnik Qurbanov Məlikməmməd Oruc oğlu saxlanılıb.**

O, Hərbi Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb edilib. Polkovnik M.Qurbanov dövlətə 3,5 milyon manat maddi ziyan vurmaqda ittiham edilir. Hazırda istintaq tərəfindən onun barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün təqdimat verilib. Yaxın saatlarda məhkəmə bununla bağlı qərar verəcək.

Qeyd edək ki, bir neçə gün əvvəl Azərbaycan Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Müdafiə Nazirliyinin Maliyyə İdarəsinin şöbəsi rəisi Rafael Xəlilov, "N" hərbi hissənin maliyyə şöbəsinin rəisi Fəzail Əliyev, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və maliyyə idarəsinin zabiti Əlizadə Vüsal Ədalət oğlu saxlanılıb. Onların barəsində Bakı Hərbi Məhkəməsi tərəfindən həbs-qətimkan tədbiri seçilib. Ümumi zərərin 10 milyon manatdan çox olduğu bildirilir.

**Hərb sahəsində genişlənən həbs dalğaları ilə bağlı "Şərq"ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Müdafiə Nazirliyinin yüsək vəzifəli zabitlərinin DTX tərəfindən saxlanılması xoş olmayan hadisədir:**

"İstənilən halda, bu halların baş verməsi onu göstərir ki, 44 günlük qələbəni əldə edən əsgərlərimiz 3 metrlik qarda, boranda döyüş vəzifələrini yerinə yetirərkən bəzi ləyaqətsiz zabitlər orduya və əsgərə ayrılan vəsaitləri mənimsəməklə məşğul olublar. Daha əvvəl verdiyim müsahibələrdə də bildirmişdim ki, həbs olunanların siyahısı genişlənə bilər. Bu həbslər də mənim ehtimallarımı doğruldur".

### Ləyaqətsiz, rüşvətxor zabitlərə qarşı sonuna qədər mübarizə aparılmalıdır

**Ekspert vurğulayıb ki, kadrların seçilmə prosesi gücləndirilməlidir:**

"Bu insanların acgözlüyü heç bir halda qalib ordumuza və onun şəxsi heyətinin nüfuzuna xələl gətirməməlidir. Əksinə, bu hadisələri ordumuzun ziyankarlardan daha erkən təmizlənməsi baxımından müsbət nəticələrə gətirib çıxaracağını ehtimal edə bilərik. Belə hallara 2014-cü ildən sonra mütəmadi olaraq rast gəlirik.

Görünür, kadrların seçilməsində də Müdafiə Nazirliyində ciddi qüsurlara yol verilir. Son 200 ildə qanı və canı bahasına düşmən ordusunu darmadağın edən, onu dizi üstünə çöktürən zabit və əsgərlərimiz üçün nəzərdə tutulan vəsaiti mənimsəyən insanlar, bu fəaliyyətə şərik olanlar və onların qanunsuz fəaliyyətinə göz yumanlar heç bir halda zabit rütbəsi daşımamalıdırlar".

**Çimnaz Şahlar**

# Azərbaycan deputatları Paşinyanla görüşüb

## Tahir Mirkişili deyib ki, görüş müsbət atmosferdə keçib





**Dünən AVRONEST Parlament Assambleyasında təmsil olunan Azərbaycan, Gürcüstan, Ukrayna nümayəndələri və Avropa Birliyi tərəfindən həmsədr nümayəndə ilə Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş olub. Görüşdə Avropa Birliyi-Ermənistan, Azərbaycan-Ermənistan münasibətləri, Ukrayna ətrafında baş verən hadisələr müzakirə olunub.**

Bu barədə APA-ya AVRONEST Parlament Assambleyasının üzvü Tahir Mirkişili məlumat verib.

Deputat bildirib ki, Nikol Paşinyan Azərbaycanla münasibətlərdən danışarkən çətin də olsa artıq müəyyən bir yolun qət edildiyini, bir çox məsələlər, xüsusilə də dəmir yolunun açılması ilə bağlı razılıqların olduğunu qeyd edərək, bunu regionda kommunikasiyaların açılması yönündə əhəmiyyətli olacağını qeyd edib. Daha sonra mina xəritələrinin təhvil verilməsindən, sərhədlərin delimitasiya və demarkasiyasından, UNESCO-nun regiona səfər edəcəyindən, 1-ci müharibə zamanı itkin düşmüş şəxslərin qalıqlarının təhvil verilməsi prosesindən, Ermənistan-Türkiyə münasibətlərinin inkişafından məlumat verərək, Prezident İlham Əliyevlə Brüsseldə, daha sonra isə 4 fevralda videokonfrans formatında görüşünə də toxunub. O, bu görüşləri müsbət qiymətləndirib.

**Tahir Mirkişili Azərbaycan nümayəndə heyəti adından çıxış edərək Azərbaycanın gündəliyində dayanıqlı sülh, regional inkişaf, kommunikasiyaların açılması, bərpa və quruculuq işlərinin olduğunu qeyd edib:** "Bunun üçün ölkəmizin enerji təhlükəsizliyi, post-covid iqtisadi inkişaf, texnologiyaların geniş tətbiqi istiqamətində region ölkələri və Avropa Birliyi ilə əməkdaşlıqda geniş imkanlarının olmasını vurğuladım. İrəvanda ilk dəfə olduğumu və Azərbaycan nümayəndə heyətinin bu səfərinin ölkəmizin dayanıqlı sülhdə xoş niyyətinin növbəti bir göstəricisi kimi qəbul edilməli olduğunu bildirdim. Ümumilikdə, görüş müsbət atmosferdə keçdi".

Qeyd edək ki, deputatlar Tahir Mirkişili və Soltan Məmmədov AVRONEST Parlament Assambleyasının komitə iclasında iştirak etmək üçün İrəvana gəlib.

**Deputatlar fevralın 22-də Ermənistanın paytaxtı İrəvanda keçiriləcək "Avronest" Parlament Assambleyasının komitə iclaslarında iştirak edəcəklər.** İclaslarda müzakirə olunacaq məsələlərə Azərbaycan tərəfinin mövqeyini bildirəcəklər. Millət vəkili Tahir Mirkişili "Avronest" Parlament Assambleyasının Enerji təhlükəsizliyi, siyasi məsələlər, insan hüquqları və demokratiya komitələrinin birgə iclasında iki sənədin müzakirə olunacağını bildirib. T.Mirkişili nəzərə çatdırıb ki, ikinci sənəd, "İctimai institutlarda səmərəlilik və inzibati resursları artırmaq üçün siyasi dialoq və institutsional əməkdaşlıq əsasında idarəetmənin təkmilləşdirilməsi" mövzusunda olacaq. Sənədin müəllifi Ermənistan Parlamentinin üzvü Mariya Karapetyandır. Qeyd edək ki, iclasa sədrliyi Tahir Mirkişili edəcək.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, "Avronest" Parlament Assambleyasında Azərbaycanın fəaliyyəti bundan sonra daha da gözəçarpan və fəal olmalıdır.**

> "İrəvanda keçiriləcək tədbirə ironik yanaşanlar və əleyhinə fikir bildirənlər burunlarının ucundan o tərəfi görməyən insanlardır"

Analitik vurğulayıb ki, bu təşkilatın məramını, ana xəttini "şərq tərəfdaşlığı" çərçivəsində mehriban qonşuluq prinsiplərinin dəstəklənməsi təşkil edir: "2020-ci ilin birinci yarısına qədər Ermənistan bu çərçivədə Azərbaycanla aktiv əməkdaşlığa can atırdı. Səbəb o idi ki, Ermənistan müharibədə "qalib tərəf" kimi münasibətlərin normallaşmasında maraqlı idi. İrəvan işğal faktının unutdurulması üçün "isti münasibətlərə" çalışırdı. Hətta bu sahədə bir çox sosial layihələr hazırlayır və QHT-lər vasitəsilə münaqişəni unutdurmağa səy göstərirdi. Sosial layihələrdə qısa videolar çəkərək guya sıravi ermənilərin Azərbaycanı "sevdiyini" vurğulayır. Maşınlarda belə bizim musiqilərin ifa olunduğunu reklam edirdilər. Müharibədən sonra vəziyyət 180 dərəcə dəyişdi. Ölkəmiz işğal altında olan torpaqlarımızı qaytardı. Hesab edirəm, bundan sonra aktivliyi Ermənistan yox, biz sərgiləməliyik. İrəvanda keçiriləcək tədbirə ironik yanaşanlar və əleyhinə fikir bildirənlər burunlarının ucundan o tərəfi görməyən insanlardır. İndiki şəraitdə Ermənistanla münasibətlərin yaxşılaşdırılması hər iki tərəfə lazımdır. Bu münasibətlər tezliklə kommunikasiyaların tam açılmasına və gediş-gəlişin bərpasına xidmət edəcək".

**İsmayıl Qocayev**

# Ermənistan XİN-in ittihamlarına tutarlı cavab verilməlidir

## Fərəc Quliyev: "Onlar fürsət düşdükcə və ayaqları yer tutduqca iddialarını davam etdirəcəklər"



**Ermənistan Xarici İşlər Nazirliyi 1988-ci ilin fevral hadisələri ilə bağlı bəyanat yayıb. Bəyanatda "artsaxın dirçəliş günü" kimi "qeyd edilən" tarixin - 20 fevral 1988-ci il ildönümündə növbəti dəfə Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar əks olunub.**

İddia olunub ki, guya, bu hadisə "insan haqları" ilə bağlı ümumerməni hərəkatının əsasını qoyub. Bəyanatda həmçinin vurğulanıb ki, 34 ildən sonra, iki dəfə qanlı müharibə olmasına baxmayaraq, "Ermənistan və artsax milli hədəflər, dövlətçilik, suverenlik, erməni haqları və beynəlxalq tanınma" istiqamətində səylərini davam etdirir. Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan tərəfinin sərsəm bəyanatını cavabsız qoymayıb. XİN-in mətbuat xidmətindən bildirilib ki, 1988-ci il 20 fevral tarixində erməni separatçılığının əsası qoyulub. Qeyd olunub ki, Ermənistanın aqressiv erməni separatçılarını dəstəkləməsi və təcavüzkar siyasəti nəticəsində Azərbaycanın ərazilərinin bir hissəsi 30 ilə yaxın işğal altında qalıb. Ermənistanın "dirçəliş" kimi qiymətləndirdiyi aqressiv separatçılıq bölgədə onilliklər ərzində davam edən genişmiqyaslı fəlakətə gətirib çıxarıb. Bu vəziyyət bölgənin uzun illər ərzində sülh və təhlükəsizlik şəraitində inkişafına ciddi əngəl törədib: "Hazırda bölgədə beynəlxalq hüququn bərqərar olduğu və iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində cəhdlərin edildiyi bir vaxtda Ermənistan XİN-in bəyanatı bu ölkənin son hadisələrdən hələ də dərs çıxarmadığını göstərir. Belə bir destruktiv yanaşmanın heç bir gələcəyi yoxdur".

Məlumat üçün bildirək ki, Qərbi Zəngəzurun Ermənistana verilməsindən sonra Azərbaycanın daxilində qara yara kimi yaradılan keçmiş DQMV-da ermənilər deyil, hər zaman azərbaycanlılar diskriminasiyaya məruz qalıb. Azərbaycanlıların bu torpaqlardan çıxması üçün hər vasitəyə əl atılıb. Keçmiş DQMV-də ermənilər tam şəkildə ermənidilli orta məktəblərdə təhsil alıblar, bütün reklam lövhələri, idarə adları ermənicə yazılıb. Xankəndidə ermənilərin ali məktəbi fəaliyyət göstərib. DQMV-dəki idarə və müəssisələrdə, rəsmi qurumlarda hər zaman ermənilər birinci postu tutublar və yazışmalar ermənicə aparılıb. 1988-ci il 20 fevrala qədər əhalinin böyük əksəriyyəti ermənilər olub və onların sayı şişirdilərək 149 minə çatdırılıb. Nəinki Dağlıq Qarabağda, Azərbaycanın bütün regionlarında, əsasən də Bakıda ermənilər yüksək vəzifələrdə təmsil olunublar, ən gəlirli sahələrə rəhbərlik ediblər və yaxud orda əsas adamlardan biri olublar. Yalnız 1988-ci il hadisələrindən sonra ermənilərin Azərbaycandan növbəti dəfə torpaq qoparmaq istəyinə qarşı Azərbaycan ictimaiyyəti etirazını bildirib. Bakıda dinc aksiyalar keçirilib. Buna cavab olaraq isə ermənilərin Qarabağda azərbaycanlılara qarşı hücumu və qətliamları başlayıblar. Xocalı və Ağdaban da daxil olmaqla, bir neçə dəhşətli soyqırım həyata keçiriblər.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə deyib ki, Ermənistanda monolit siyasi elita yoxdur. Partiya rəhbərinin sözlərinə görə, ermənilər Azərbaycan xalqı ilə yanaşı, öz aralarında da savaşır, mübarizə aparırlar:** "Ermənilərin bir sıra məsələlərə baxışı ziddiyyətlidir. Ona görə də indiki dövrdə bu formada bəyanat yaymaları o qədər təəccüb doğurmur. Ermənilər 1978-ci ildə torpaqlarımıza gəlişlərinin 150 illiyi münasibəti ilə bir abidə qoymuşdular. Yəni 1828-ci il müqaviləsindən sonra bura köçürüldüklərini özləri etiraf ediblər. Ucaltdıqları abidə ilə öz miflərini dağıtdılar. Ermənistan 44 günlük müharibədə məğlub olandan sonra artıq heç kim demək olar ki, Qarabağ haqqında, "status" barəsində danışmır. Hətta uzun müddət arxalandıqları, müəyyən qədər stimul aldıqları Fransa kimi dövlətlər də daha çox Azərbaycan-Ermənistan əməkdaşlığından, sərhədlərdəki konfliktlərdən danışırlar. Ona görə də İrəvan hökuməti Qarabağ erməniləri məsələsini gündəmdə saxlamaq üçün müxtəlif manevrlər edirlər. Qondarma rejimin "xarici işlər naziri" İrəvanda kitab təqdimatı keçirtmişdi. Orada bəyan etmişdi ki, "Kəlbəcərin itirilməsi iki "erməni respublikası"nın su ehtiyatlarına böyük zərbə vurub". Ancaq bu kimi məsələlər ciddiyə alınmır. Ermənistan özü çox hay-küy salanda İrəvan deyirlər ki, "heç siz özünüz qondarma rejimi tanımırsız, başqasından tələb edirsiz". Lakin belə absurd bəyanat göstərir ki, ermənilər fürsət düşdükcə və ayaqları yer tutduqca iddialarını davam etdirəcəklər".

**F.Quliyevə görə, bu məsələnin gündəmdə qalması həm daxili auditoriya, həm də xarici tərəfdarları üçün vacibdir:** "Sülh müqaviləsinin imzalanmasını yubatmaq, sərhədlərin müəyyənləşməsini gecikdirmək Qarabağ məsələsini gündəmdə saxlamağa xidmət edir. Xankəndi və ətrafında 27 minə qədər erməni yaşadığı deyilir. Onların hamısının 1988-ci ilədək doğulanlardan ibarət olması, yoxsa sonradan sürü kimi rus sülhməramlıları tərəfindən bölgəyə gətirildiyi məlum deyil. Hesab edirəm ki, Ermənistanın XİN-in absurd ittihamlarına tutarlı cavab verilməlidir, amma məsələni çox da ciddiyə almamalıyıq. Rəsmi Bakının mövqeyi və addımları düzgündür".

**İsmayıl Qocayev**



# Qərb Ukraynaya silah verir, Rusiya isə mesaj...

## Samir Hümbətov: "Tərəflər arasındakı gərginliyin ciddi toqquşmaya səbəb olacağı gözlənilmir"

**Ukrayna Prezidenti Vladimir Zelenski fransalı həmkarı Emmanuel Makronla telefon danışığı apardığını deyib. Danışıq zamanı o, Donbassdakı münaqişənin həlli üçün dərhal Təmas Qrupunun toplanmasına və atəşkəs rejiminin tətbiqinə çağırıb.**

Prezident bu barədə Twitter səhifəsində yazıb: "Biz sülh prosesinin intensivləşdirilməsinin tərəfdarıyıq. Üçtərəfli Təmas Qrupunun dərhal çağırılmasının və dərhal atəşkəs rejiminin tətbiqinin tərəfdarıyıq". Məlumat üçün bildirək ki, Rusiya və Fransa prezidentləri Vladimir Putin və Emmanuel Makron işçi qrupun görüşünün təşkili barədə razılığa gəliblər. İşçi qrupun əsas vəzifəsi Donbassda təmas xəttində atəşkəs üçün şərait yaratmaq olacaq. Bundan əlavə Rusiya və Fransa xarici işlər nazirləri yaxın günlərdə Avropada təhlükəsizlik məsələləri üzrə sammitin təşkilini müzakirə edəcəklər. ATƏT-in baş katibi Helqa Şmid də özünün "Twitter" səhifəsində tərəfləri Donbassda atəşkəs rejiminə riayət etməyə çağırıb. O deyib ki, Donbassdakı münaqişənin bütün tərəfləri ağır silahlardan istifadəni dayandırmalı və atəşkəsə riayət etməlidir: "ATƏT müşahidəçiləri Minsk razılaşmaları ilə qadağan olunmuş ağır silahlardan istifadənin intensivləşməsini qeydə alıblar. Dinc əhalinin həyatını təhlükəyə atmaq yolverilməzdir".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, bir aydan çoxdur rus ordusu Ukrayna sərhəddindədir. Analitikə görə, Rusiya üç tərəfə mesaj vermək niyyətindədir:** "Moskva Ukraynaya demək istəyir ki, Kreml istəmədikcə Kiyev müstəqil addım ata bilməz. Həmçinin, Qərbə bildirir ki, onun sərhədinə yaxınlaşdıqca yaxınlaşmaq istədikləri dövlətləri hədəf halına gətirirlər. Beynəlxalq birliyə də göstərir ki, müharibə istəmir, amma məcburi şəkildə onu müharibəyə cəlb edirlər. Rusiya üçün əsas narahatedici məsələ gələcək təhlükəsizliyi ilə bağlı Qərbin vermədiyi təminatdır. Rusiya demək istəyir ki, Qərb dövlətləri təminat vermədikcə istənilən cəhd uğursuz olacaq. Başda ABŞ olmaqla NATO dövlətlərinin bəziləri, xüsusilə də ABŞ, Böyük Britaniya və Kanadadan Ukraynaya silah tədarükü davam etməkdədir. Demək olar ki, bu tendensiya hər gün yaşanır. Bu dövlətlər Ukraynaya verdikləri silah-sursat dəstəyi barədə açıqlama verərkən bildirirlər ki, bunu etməkdə əsas məqsəd Ukraynanın müafiə qabiliyyətini Rusiya qarşısında artırmaqdır. Nəhayət, Rusiya-Ukrayna arasındakı gərginlik, rus diplomatın açıqlamaları, Qərb ölkələrinin müharibənin hər an başlaya biləcəyi ilə bağlı açıqlama verməsi və başqa məsələlər onu göstərir ki, Qərb və Rusiya tərəfi Ukrayna üzərindən öz məqsədlərinə çatmağı planlaşdırırlar. Əlbəttə ki, burada Ukrayna məqsədə çatmaq üçün vasitə hesab edilir".

*S.Hümbətovun fikrincə, Rusiya və Ukrayna arasında genişmiqyaslı müharibə təhlükəsi gözlənilmir:* "Rusiya qoşunları Ukrayna sərhədində cəmləşdirilib. Üstəlik də Belarusda Rusiya və Belarus qoşunları təlim keçir. Eyni zamanda Rusiya yaxşı başa düşür ki, əgər Ukraynaya hərbi müdaxilə edərsə, bu ona qarşı ciddi sanksiyalara gətirib çıxarar ki, nəticəsi Rusiya iqtisadiyyatı üçün yıxıcı ola bilər. Ona görə də hesab etmək olar ki, tərəflər arasındakı gərginliyin ciddi toqquşmaya səbəb olacağı gözlənilmir".

**İsmayıl**

# Koçaryanla Sarkisyan axtarışa verilib

## "Sülhməramlılar Arutyunyanın həbs edilməsinə yardımçı olmalıdır"

**Ermənistanın sabiq prezidentləri Koçaryan və Sarkisyan müvafiq maddələrlə cinayət məsuliyyətinə cəlb edilib və axtarışa veriliblər.**



Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyev deyib ki, hər iki keçmiş prezident 1988-ci ilin fevral ayından etibarən Azərbaycan və erməni xalqları arasında milli düşmənçilik salmaq, nifrət oyatmaq niyyəti ilə şəhərin təşkilat və müəssisələrində erməni milliyyətindən olan işçiləri yığıb iclaslar keçiriblər. Qeyd olunub ki, onlar Qarabağın ermənilərə "məxsus olduğunu" və orada yalnız ermənilərin yaşamalı olduğunu, azərbaycanlıları qovmağı, şəhərdən və Qarabağdan zorla köçürməyi, evlərini yandırmağı təbliğ ediblər. Xatırladaq ki, ötən həftə Qarabağdakı separatçıların başı Araik Arutyunyanın da həbs olunması, Azərbaycanda məhkəmə qarşısına çıxarılmasının mümkünlüyü açıqlanıb. Rəsmilər bununla bağlı istintaqın davam etdiyini deyiblər.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, adları çəkilən şəxslərin cinayətləri ortadadır. Partiya təmsilçisi qeyd edib ki, Ermənistanın qatil eks-prezidentləri - Robert Koçaryan, Serj Sarkisyan 1988-ci ildən bəri xarici güclərin və xüsusən Kremlin "fətvası" ilə erməni toplumunu Azərbaycanın üzərinə qaldıraraq münaqişəni və müharibəni qızışdıran əsas fiqurlar olublar:** "Təəssüf ki, bu gün də onlar İrəvanda və Xankəndidə öz bədnam, məkrli işlərini görməkdədirlər. Azərbaycanın Qarabağ torpaqlarının bir hissəsində də eyni funksiyasını, çox güman ki, yenə də Moskvanın dediyi ilə oturub-duran Araik Arutyunyan davam etdirir. 44 günlük savaş zamanı Gəncəyə raket atılmasına birbaşa göstəriş verdiyini etiraf etməsindən sonra Azərbaycan Baş Prokurorluğu tərəfindən barəsində 8 maddə ilə cinayət işi qaldırılaraq interpolla axtarışa verilmiş Arutyunyan 1 il 4 aydır ki, Azərbaycan torpaqlarında sərbəst gəzir. İstədiyi vaxt Xankəndi-Şuşa-Laçın-Gorus yolu ilə sərbəst şəkildə İrəvana, eləcə də xarici ölkələrə, həmçinin bizim üçün daha əlçatan olan Rusiyaya gedib-gəlir. Eyni zamanda barələrində cinayət işi açılmış Koçaryan və Sarkisyan da rahat gəzib-dolaşırlar. Hesab edirəm ki, rəsmi Bakı bu istiqamətdə müvafiq strukturlarla birgə hərəkətə keçməli, məlum şəxslərin həbs edilməsi ilə bağlı zəruri addımlar atmalıdır. Araikin qanunsuz fəaliyyətini davam etdirməsinin qarşısı alınmalıdır. Sülhməramlılar və onların rəhbərləri də diqqətli olmalıdırlar. Sülhməramlıların bir vəzifəsi də hərbi cinayətə yol verən şəxsləri məsuliyyətə cəlb etməkdir. Sülhməramlılar Arutyunyanın həbs edilməsinə yardımçı olmalıdır. Əks halda Azərbaycan tərəfi cinayət işi açdığı quldurları öz gücü hesabına zərərsizləşdirməlidir".

**İsmayıl Qocayev**

# "Halal yaşamaq lazımdır"

## İlham Tumas: "Təkcə ordunun yox, heç bir qurumun pulunu mənimsəmək olmaz"



**Ölkədə səs-küylü həbslər davam edir. Bu dəfə növbə Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Oruc oğlu Qurbanova çatıb.**

Baş Prokurorluğun Mətbuat Xidmətinin məlumatında qeyd edilib ki, Hərbi Prokurorluğun İstintaq idarəsi tərəfindən onun barəsində Cinayət Məcəlləsinin 179.4-cü maddəsi ilə ittiham elan edilib və həbs-qətimkan tədbirinin seçilməsi üçün məhkəməyə təqdimat verilib.

**Qarabağ döyüşçüsü, tanınmış jurnalist İlham Tumas bu barədə "Şərq"ə danışarkən bildirib ki, təkcə ordunun yox, heç bir qurumun pulunu mənimsəmək olmaz.**

"Əgər DTX bu gün Müdafiə Nazirliyində reydlər keçirir və müəyyən şəxslər həbs olunursa, deməli, dövlətin pulunu yeyənlər var. Bu istənilən quruma aiddir. Halal yaşamaq lazımdır. Dövlətin pulu ana südü kimi halal puldur. Onu heç vaxt namərdlərə dağıtmaq olmaz".

**Sənan İsmaıl**

# "Mütləq Azərbaycan-Gürcüstan müştərək universiteti yaradılmalıdır"

## Aygül İsayeva: "Bununla Azərbaycan məktəblərində kadr çatışmamazlığı problemi həllini tapacaq"

**Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev Gürcüstana rəsmi səfəri çərçivəsində azərbaycanlıların yığcam yaşadıqları Marneuli rayonuna səfər edib. Bu, Gürcüstanda yaşayan etnik azərbaycanlılarla yüksək vəzifəli şəxsin uzun illərdən sonra ilk təmasıdır. Verilən xəbərə görə, təhsil naziri Marneulidə fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinə baş çəkib. Nazirlə görüşdə müəllimlər, ziyalılar, QHT nümayəndələri iştirak edib. Görüş zamanı təhsildəki mövcud problemlər barədə məruzə edən iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva bu haqda "Şərq"ə danışdı:**

- Təhsil sahəsində kifayət qədər problemlər var, orta məktəblərdə yaşanan problemlər zəncirvari olaraq universitetdə də özünü büruzə verir. Ona görə də düşünürəm ki, orta məktəblərdə, ictimai məktəblərimizdə keyfiyyətli təhsilə nail olmaq ali təhsil ocaqlarında yaşanan problemlərin də həll edilməsində mühüm rol oynayacaq. Gürcüstanda Azərbaycandilli məktəblərdə kifayət qədər problemlər yaşanır, ancaq ən başlıca problem kadr çatışmamazlığı ilə bağlıdır. Hər il Gürcüstanda Azərbaycan məktəblərinin sayı azalmaq üzrədir. 1989-cü ildə Gürcüstanda 183 Azərbaycan məktəbi var idi, 2019-cu ildə bu say 120-yə qədər azaldıldı, hazırda isə 116 Azərbaycan məktəbi fəaliyyət göstərir. Bu məktəblərdən də 80-i Azərbaycan, yerdə qalanlar isə qarışıq, sektor məktəblərdir (azərbaycan/gürcü, azərbaycan/rus və s.). Hətta Azərbaycan məktəblərinin nəzdində yaradılan gürcü sektoru olan məktəblərdə Azərbaycan dili və ədəbiyyat fənninin keçirilməsi rəsmi qadağan edilməsə də buna bənzər hal yaşanır, çünki tədris edilmir və tədrisin aparılması üçün şərait yaradılmır, həmçinin təbliğatı aparılmır. Təhsil ilə bağlı qanunvericiliyə əsasən Azərbaycan məktəblərinin nəzdində fəaliyyət göstərən gürcü bölməsində və ya gürcü məktəblərində təhsil alan azərbaycanlıların istəyi minimum 10 nəfərdən ibarət qrup formalaşdığı təqdirdə Azərbaycan dili fənni tədris edilə bilər. Ancaq Azərbaycan məktəblərində Azərbaycan dili üzrə kadrlar çatışmır, belə olan halda gürcü məktəblərində/gürcü dilli bölmələrdə bu fənnin tədrisi ilə bağlı söhbət belə gedə bilməz.

**- Məktəblərin bağlanmasına əsas səbəb kimi kadr çatışmazlığı göstərilir?**

- Bir sıra səbəbləri var, ancaq əsas səbəb, bəli, kadr çatışmamazlığıdır. Bu gün Gürcüstanda Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllimlər hazırlayan fakültə yoxdur. Əvvəllər Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsi Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllimlər yetişdirirdi. Sonralar Azərbaycan bölməsi bağlandı. Ancaq problem təkcə Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin çatışmamazlığı ilə bağlı deyil. Digər fənləri - riyaziyyat, fizika, kimya, biologiya, tarix və s. tədris edən Azərbaycan dilli müəllimlər də çatışmır. Bir çox müəllimlər öz ixtisası üzrə dərs demir. Kadr çatışmazlığı hazırda təqaüd yaşına çatmış müəllimlərin işdən uzaqlaşdırılması ilə daha da kəskin hiss olunur. 2020-ci ildə qeyri-gürcü məktəblərdə 1450 nəfər müəllim sistemi tərk etdi və məktəblərə cəmi 250 yeni işçi qəbul edildi. Onların əksəriyyətinin müəllim ixtisası yoxdur.



*"İkinci təklifimiz odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar 1+4 proqramı ilə sadələşdirilmiş yolla universitetə qəbul edilsinlər"*

Gürcüstan Təhsil Nazirliyi qeyri-gürcü məktəblərində Avropa Şurasının təzyiqi ilə, təkrar edirəm, məhz təzyiqi ilə islahatlar keçirir. Bilinqual, yəni ikidilli təhsil sisteminin tətbiqinə artıq təkcə orta məktəblərdə deyil, uşaq bağçalarından başlanıbdır. Amma əsas problem bundan ibarətdir ki, Gürcüstan ikidilli kadrlar yetişdirmir, milli kadrlarımız demək olar ki, yoxdur. Məktəblərdə kadr çatışmazlığını, ikidilli kadrların (Azərbaycan və gürcü dilli) yetişdirilməsi üçün isə Azərbaycan-Gürcüstan müştərək universitetinin yaradılmasını təklif edirik. Qeyd edim ki, biz azərbaycanlıların öz ana dilimizdə, Azərbaycan dilində təhsil almaq hüquqlarımız Gürcüstan təhsil qanunvericiliyi ilə qorunur. Gürcüstan Avropa Şurası qarşısında götürdüyü öhdəlik əsasında da bizim ana dilimizdə təhsil almaq hüquqlarımızın qorunmasına boyun olubdur. Gürcüstan Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasını imzalamaqla orta məktəblərdə ana dilində təhsilin yaşadılması ilə bağlı öhdəlik götürüb. Sənəddə təkcə orta məktəblərdə deyil, universitetdə də etnik azlıqların dilində təhsilin əldə edilməsi üçün şəraitin yaradılması nəzərdə tutulur.

**- Dediyiniz müştərək universitetin üstünlüyü nə olacaq?**

- Azərbaycan-Gürcüstan müştərək universiteti yaransa Azərbaycan məktəblərində kadr çatışmamazlığı problemi həllini tapacaq. Bu universiteti yaratmaqda məqsəd məhz ikidilli kadrların yetişməsinə təkan olmaqdır. Tələbələr üçün Azərbaycan dili ilə yanaşı gürcü dilini 1-ci kursdan universiteti bitirənə kimi öyrənmək məcburi olacaqdır. Universitet həm də daha böyük imkanlar deməkdir. Bu gün Azərbaycan dilli media, jurnalistika, mətbuat, teatr, milli rəqs elə də ürəkaçan vəziyyətdə deyil. Universitet yarandığı təqdirdə bu sahələrin də inkişaf etməsi üçün şərait yaranacaq. 2019-cu ildə Tbilisidə Azərbaycan-Gürcüstan müştərək universitetin yaradılması ilə bağlı imzatoplama aksiyasına başladıq (Bunu xatırlayırıq - M.R.). Bütün Gürcüstan azərbaycanlıları tərəfindən, müəllimlər, valideynlər, şagirdlər tərəfindən, 7-dən 77-yə hər kəs bu işi dəstəklədi. 2020-ci ildə müraciət və 3000-dən çox imzanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Gürcüstanın Baş naziri Giorgi Qaxariyaya ünvanladıq. Bilirəm ki, Gürcüstanda hansısa universitet nəzdində fakültənin açılması ilə bağlı danışıqlar gedir. 2019-cu ildə universitetin yaradılması ilə bağlı aksiya böyük səs-küyə səbəb olmuşdu. Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Nazirliyinin nümayəndələri tərəfindən bu məsələ ilə bağlı nazirliyə çağrılmışdım. Nazirliyin verdiyi məlumata əsasən Gürcüstanda dövlət universiteti nəzdində Azərbaycan dili və Ədəbiyyat müəllimləri hazırlayan bir departamentin yaradılmasının nəzərdə tutulduğunu dedilər. Daha sonra hörmətli səfir Faiq Quliyevin Cavaxişvili adına Tbilisi Dövlət Universitetində universitetin rektoru ilə görüşü oldu və fakültənin yaradılması ilə bağlı müzakirələr aparıldı. Keçən il dekabr ayında Maarif təşkilatının sədri Ələddin Qarabağlı ilə Gürcüstanın Təhsil Nazirliyində görüşümüz oldu. Nazirlik nümayəndələri də Azərbaycan dili və ədəbiyyat müəllimlərinin hazırlanması ilə bağlı bir bölmənin açılmasından danışdılar. Təqdirəlayiqdir, ancaq bu, məsələni köklü həll etmir. Əvvəla düşünürəm ki, fakültə deyil, Humanitar Elmlər və ya Xarici dillər fakültəsinin nəzdində balaca bir departament yaradılacaq və ya bu ixtisas üzrə proqram işlənib hazırlanacaq. Bu isə ikidilli kadrların yetişməsi demək deyil, yalnız bir problemin həll edilməsidir. Əvvəllər Puşkin adına Tbilisi Dövlət Pedaqoji Universitetində Azərbaycan bölməsi var idi. Hazırda İlya Çavçavadze adına Universitet adlanır və həmin bölmə bir müddət bu universitet nəzdində də fəaliyyət göstərdi. Biz ehtiyatlanırıq ki, vaxtilə mövcud olan Azərbaycan bölməsi müəyyən bəhanələrlə necə bağlandısa, yeni yaradılacaq bölmənin də aqibəti 5-10 ildən sonra eyni olacaq. Universitet isə daha çox imkanlar və müstəqillik deməkdir. Universitet olsa müstəqillik olar, təbliğat strategiyasını da özü həyata keçirər, üstəlik abituriyentlərin müəllim olmaq üçün cəlb edilməsində Azərbaycandilli məktəblər də yaxından iştirak edər.

**- Siz nazirə konkret təkliflər təqdim etdiniz?**

- Bəli. Birincisi, ikidilli kadrlar (Azərbaycan və gürcü) hazırlayan Azərbaycan-Gürcüstan müştərək universitetin təsis edilməsi. İkinci, Gürcüstanda yaşayan azərbaycanlılar 1+4 proqramı ilə sadələşdirilmiş yolla universitetə qəbul edilsinlər. Testlərin hazırlanmasında AR Təhsil Nazirliyinin yaxından dəstəyi olsun. Gürcüstanda məktəblərdə attesstat imtahanları ləğv edilib. Bunun nəticəsidir ki, Azərbaycan dili və Ədəbiyyat fənni gənclərin ən az maraq göstərdiyi fənlərdən birinə çevrilib. Buna görə də universitetə qəbul imtahanlarına "Məntiq və Riyaziyyat" fənni ilə yanaşı Azərbaycan dili və ədəbiyyat fənninin də daxil edilməsini təklif edirəm. Bu təkliflə bağlı müraciətimizi 2020-ci ildə Gürcüstanın baş nazirinə də ünvanlamışdıq. Üçüncüsü, Gürcüstanda Azərbaycandilli məktəblər üçün çap edilən Azərbaycan dilində olan kitabların redaktəsində AR Təhsil Nazirliyinin dəstəyi vacibdir. Çünki dərsliklərdə kifayət qədər Azərbaycan dili ilə bağlı qüsurlar var. Dördüncüsü, AR Təhsil Nazirliyi Azərbaycan dili və ədəbiyyat fənni üzrə imtahan verəcək müəllimlərə təmənnasız onlayn treninqlər təşkil etsin. Gürcüstanda uzun müddətdir ki, təkcə Azərbaycan dili və ədəbiyyat müəllimləri baş müəllim statusu almaq üçün ixtisasları ilə bağlı imtahanlarda iştirak edə bilmirdilər. Artıq bu ildən etibarən bu mümkün oldu. Proqram və testlərin hazırlanmasında AR Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi iştirak etdi. Ancaq Gürcüstanda fəaliyyət göstərən bir sıra Azərbaycan dili və ədəbiyyat müəllimləri imtahanlara hazırlaşmaqla bağlı çətinliklərlə üzləşiblər. AR Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən bizim müəllimlər üçün onlayn formada təmənnasız olaraq treninqlərin təşkil edilməsini təklif edirəm. Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün proqram baş müəllim statusu almaq üçün hazırlanıb. Aparıcı və mentor müəllimlər üçün də testlərin, proqramların hazırlanmasında AR Təhsil Nazirliyinin köməyinə ehtiyac olacaq. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin səlahiyyətinə aid olmasa da, ümumi məlumatı olması üçün görkəmli şəxsiyyətlərimizin, ziyalılarımızın adlarının Azərbaycan məktəblərinə verilməsi ilə bağlı problemi də səsləndirməyi düşündüm. Tbilisidə yerləşən 73 saylı Azərbaycan məktəbi ancaq barelyefdə M.F.Axundovun adını daşıyır. Ancaq rəsmi sənədlərdə 73 saylı məktəb gedir. Marneulinin Qızılhacılı kəndində yerləşən məktəb 1970-ci ildən Nərimanovun adını daşıyıb. 2000-ci illərin əvvəllərində Nərimanovun adı məktəbdən götürülüb. Onun adının bərpa edilməsində problemlər yaşayırıq. 2019-cu ildə bununla bağlı Marneuli bələdiyyəsinə müraciət etmişdik, imzalar toplamışdıq. Bələdiyyədən bu məsələ ilə bağlı komissiya yaradılıb işə baxılacağı ilə bağlı standart cavab aldıq. Ancaq bu günə qədər komissiya heç bir əməli addım atmayıb.

**- Dərslik problemi nə yerdədir?**

- Azərbaycan dili və ədəbiyyatı dərsliklərini nazirlik hər il göndərir.

**- Təhsil naziri səsləndirdiyiniz problemlər, təkliflər barədə nə dedi?**

- Cənab nazirin Gürcüstanın təhsil naziri ilə görüşü olacaq, bizim qaldırdığımız məsələlərlə bağlı Gürcüstanın Təhsil Nazirliyində müzakirələr aparılacaq. AR Təhsil Nazirliyinin səlahiyyətləri imkan verən məsələlərdə dəstək olacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir**




# Unutmamalıyıq...

## Ana dilimiz 55 milyon azərbaycanlını birləşdirən müqəddəs amildir

**Fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır.**

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Bu mənada dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüfadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, elmi və mədəni həyatının bütün sahələrində işlədilir. Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (və ya onların nümayəndəlikləri ilə) və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə Azərbaycan dilinə tərcümə olunmaq şərtilə aparıla bilər. Ümummilli lider Heydər Əliyevin imzası ilə təsdiqlənmiş dövlət dilimiz haqqında Qanun dünya azərbaycanlılarını birləşdirən Ana Qanundur, desək, yanılmarıq. Bu gün dünyada 55 milyona yaxın Azərbaycan türkü yaşayır və onlar məhz ana dilimiz vasitəsilə ünsiyyət qurur, mötəbər tədbirlərdə bir -biriylə bu dilin köməyi ilə yaxınlaşır, "mən də azərbaycanlıyam", kəlməsini fəxrlə səsləndirirlər.

**Beynəlxalq Ana Dili günü və bu günün xalqların taleyində hansı əhəmiyyət daşıdığı barədə fikirlərini səsləndirən akademik Nizami Cəfərov qeyd etdi ki, müstəqilliyini bərpa etmiş Azərbaycan dövləti üçün ölkə ərazisində ana dilimizin dövlət dili kimi təsdiqlənməsi asan olmayıb. 70 il Sovet imperiyası əsarətində olan bütün digər respublikalarda olduğu kimi Azərbaycanda da dövlət dili kağız üzərində öz ana dilimiz olsa da, məlumdur ki, sənədləşmədə aparıcı dil rus dili idi. Amma xalqımızın yüksək milli-mənəvi köklərinin illərlə qorunub saxlanması sayəsində bu proses ağrısız keçildi.**

- Nəzərə almaq lazımdır ki, biz bir dövrdən başqa dövrə keçdik. Bu məsələdə ağrısız proses lazım idi ki, biz də onu keçə bildik. Əvvəlki illərlə müqayisədə son zamanlar yüksək vəzifələrə təyin edilən məmurların demək olar hamısı Azərbaycan dilini gözəl bilir, eyni zamanda xarici dil bilgilərinə də sahibdirlər. Bununla belə, Azərbaycanda həmişə ana dili dominant olub. Bu, sovet vaxtı da belə idi. Baxmayaraq ki, Azərbaycan SSRİ tərkibində olan 15 respublikadan biri idi, məhz ümummilli lider Heydər Əliyevin ana dilinə sonsuz sevgisi Azərbaycan dilinin qorunmasında mühüm rol oynadı. Heydər Əliyev rus dilini mükəmməl bilirdi, siyasi opponentlərinə rus dilində kəskin, tutarlı cavablar verirdi. Eyni zamanda ölkə daxilində, xalqla ünsiyyətdə yalnız ana dilində danışırdı. Eləcə də cənab Prezident İlham Əliyev eynilə bu cür davranır. Xarici dili mükəmməl bilir, xarici media nümayəndələri ilə sərbəst danışır, amma eyni zamanda görün, ana dilimizdə necə rəvan danışır. Hər bir nazir, məmur, vəzifəli şəxs, ümumiyyətlə hər bir Azərbaycan vətəndaşı üçün bu, ən gözəl nümunədir. Unutmamalıyıq ki, ana dilimiz 55 milyon azərbaycanlını birləşdirən müqəddəs amildir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Ey doğma dilində danışmağı ar bilənlər...

## Bu dili öyrənin və zənginləşdirin!

**Dünən bütün dünya Beynəlxalq Ana Dili Gününü qeyd etdi. Dilimiz mənəviyyatımızdır. Məqsədi dövləti və milləti yaşatmaq, formalaşdırmaq, onların varlığını hiss etdirməkdir. Dil hər bir xalqın kimliyidir. Biz onu qorumalıyıq və buna məcburuq.**

Əbəs yerə deyilməyib ki, bir xalqı məhv etmək istəyirsənsə, birinci onun dilini əlindən al. Tarix boyu farslar, ərəblər, ruslar və başqa millətlər bu metoddan istifadə edib. Zaman dəyişib və biz kimlərinsə müstəmləkəsi olmaqdan çıxmışıq. Lakin hələ də dilimiz xarici amillərin təsirindən uzaqlaşmağı bacarmır. İnsanlar dilin normalarına və xüsusiyyətlərinə hakim ola bilmir. Bir çox şəxslər bunu kitab oxumamaq və maarifləndirmənin düzgün aparılmaması ilə əlaqələndirir.



**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən teleaparıcı və natiqlik sənəti üzrə mütəxəssis Cəlalə Nəzəroğlu bildirib ki, ana dilimizi qorumaq milli təəssübkeşlik məsələsidir:**

"Bu dildə doğru danışmaq, zəngin lüğət tərkibini öyrənmək üçün öncə mahiyyəti başa düşmək lazımdır. İnsan özünə sual verməlidir ki, öz ana dilində danışmaq istəyir, ya yox. Təbii ki, hamımızın cavabı "hə" olmalıdır. Amma yenə də nəticəyə baxırıq. Bu gün Azərbaycan dilində təmiz danışan, varvarizm və dialektlərdən istifadə etməyən, kəlmələri doğru tələffüz edən insanların sayı nə qədərdir? Fikrimi soruşsanız, çox olduğunu deyə bilməyəcəm. Öz doğma dilində rabitəli, səlis və qüsursuz danışan insanlar hər zaman ciddi qəbul edilirlər. Natiqlik, bədən dili, ünsiyyət formaları bu işin digər tərəfidi".

**O, insanları hər vəziyyətdə ədəbi dil normalarına riayət etməyə çağırıb:**

"Qoy, əcnəbi dillərdən alınmış və bizim lüğətimizdə olmayan sözlər istifadə edilməsin, rus, ingilis, Türkiyə türkcəsinin aksenti ilə danışmayaq, ləhcəmizi və dialektlərimizi unutmayaq, amma ədəbi dil öyrənək. Azərbaycan ədəbi dili orfoqrafiya və orfoepiyadan ibarətdir. Bu dil yazıldığı kimi oxunmur. Düzdür, bəzi sözlərin deyilişi yazılışı ilə eyni olur. Məsələn, "güllər", "dağlar" yazılırsa, elə də tələffüz olunur, "uşaqlar" yazılırsa [uşağlar] deyilir. Bu, orfoepiyadı. Orfoqrafiya düzgün yazıdır. Hər bir insan savadlı yazmalıdır. Durğu işarələrinə əməl etməli, cümlənin qrammatik quruluşunu nəzərə almalıdır. Dili sonradan öyrənmək və təkmilləşdirmək heç vaxt gec deyil. Bunun üçün "Youtube" kanalları və kitablar mövcuddur, mütəxəssislər fəaliyyət göstərir".

**Cəmilə ƏZİM**

# Zəngəzur azərbaycanlıların ulu yurd yeridir

## Nazir Əhmədlinin kitabı tarixi faktlarla zəngindir




**Azərbaycan coğrafiyasının mühüm tərkib hissəsi olan Zəngəzurun tarixi qədim daş dövründən başlayır. Zəngəzur ərazisində Böyük İşıqlı və Dəvəboynu dağlarında qədim türk tayfalarına aid qayaüstü rəsmlər, Nüvədi kəndində Qarqadaşı dağında qədim türk yazılı kitabələri, Qubadlı, Zəngilan, Laçın, Qarakilsə, Qafan, Meğri və Gorus rayonlarında qədim yaşayış məskənləri, kurqanlar, dini təyinatlı abidələr, o cümlədən at və qoç heykəlləri aşkar edilmişdir.**

XIX əsrin əvvəllərində çar Rusiyasının işğalçı ordusu Qacar və Osmanlı dövlətləri ilə apardığı müharibələr zamanı İrəvanın, Borçalının, Göyçənin, Vedinin, Ağbaba-Şörəyelin, Dərələyəzin, Naxçıvanın, Qarabağın və Zəngəzurun yerli əhalisi Azərbaycan türkləri olan kəndlərini viran qoydular.

Çar Rusiyasının 1828-ci ildə Qacarlar dövləti ilə imzaladığı Türkmənçay, 1829-cu ildə isə Osmanlı dövləti ilə imzaladığı Ədirnə müqavilələrinin şərtləri Azərbaycanın tarixi torpaqlarının bölünməsi və qədim dövlətçilik ənənələrinə son qoyulmasına səbəb oldu. Azərbaycanın tarixi-coğrafiyasını Araz çayının şimalı və cənubu olmaqla iki yerə bölən Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İrandan 40-50 min erməni Azərbaycanın şimalına köçürüldü.

Beləliklə, Qafqaz regionu üçün yadelli etnik ünsür olan ermənilər Azərbaycan ərazisində məskunlaşdıran dövlət çar Rusiyası oldu. Ermənilərin köçürülməsindən sonra Azərbaycan xalqının tarixində faciəli dövr başlandı. Ermənilər tərəfindən 1905-1906-cı illərdə və 1918-1920-ci illərdə İrəvanda, Qarabağda, Zəngəzurda, eləcə də Azərbaycanın müxtəlif yerlərində yerli dinc əhali olan azərbaycanlılara qarşı soyqırımları törədildi. Bu soyqırımları nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirildi, yaşayış məntəqələri və tarixi-mədəni abidələr viran edildi.




XIX əsrdə çar Rusiyasının hakim dairələri tərəfindən İrəvanın, Qarabağın və Zəngəzurun gerçək tarixini əks etdirən kameral təsvirlər, əhali siyahıyaalmaları, hərbi topoqrafik xəritələr və digər rəsmi sənədlər ermənilərin regiona gəlmə olduqlarını təsdiq edir. Azərbaycanın tarixçi alimləri bu cür etibarlı tarixi faktları əks etdirən mənbələr əsasında erməni yalanlarını tutarlı dəlillərlə ifşa edirlər. AMEA Tarix İnstitutunun yeni nəşrlərində ermənilərin uydurma tarixinin alt-üst edən tədqiqatlar öz əksini tapıb. Bu tədqiqatlar mütəmadi olaraq nəşr edilir, müxtəlif dillərə tərcümə edilir və kütləvi informasiya vasitələri tərəfindən təbliğ olunur.

**Ciddi tədqiqatları ilə tanınan və birbaşa mənbələrə istinad edilərək araşdırmalar aparan alimlərimizdən biri də Nazir Əhmədlidir.**

Nazir müəllimin XIX əsrdə İrəvan, Dərələyəz, Göyçə və Zəngəzur ərazilərində yaşayan azərbaycanlı əhalinin kameral təsvirinə aid ilkin mənbələr əsasında nəşr edilmiş kitabları Azərbaycan mənbəşünaslığında yeni bir qolun - erməni yalanlarını ifşa edən mənbəşünaslıq sahəsinin inkişaf etdirilməsinə səbəb olub. Nazir Əhmədli çox çətin və ağır zəhməti sayəsində Azərbaycan tarix elminə "Dərələyəz mahalının kameral təsviri - 1831-ci və 1842-ci illər", "Göyçə mahalının kameral təsviri - 1831-ci və 1842-ci illər" və "İrəvan əyalətinin kameral təsviri (beş cild)" kimi dəyərli əsərlər bəxş edib. Nazir Əhmədlinin akademik Şahin Mustafayevin elmi redaktorluğu ilə yeni nəşr edilmiş "Zəngəzur qəzasının kameral təsviri - 1874-cü il" adlı iri həcmli kitabı isə Zəngəzurun yerli əhalisinin azərbaycanlılar olduğunu bir daha sübut edir. Nazir müəllimin bu kitabı XIX əsrdə Zəngəzurda olan yaşayış məntəqələrinin və burada yaşayan yerli əhalinin sayını və hər bir nəfərinin adlı siyahısını əks etdirir. Nazir Əhmədli bu kitabın nəşrindən öncə Zəngəzur mahalının 1832-1833-cü illərdə kameral təsvirini əks etdirən kitabında tutarlı faktlar əsasında buranın yerli əhalisinin azərbaycanlılar olduğunu göstərib. Müəllif özü "Zəngəzur qəzasının kameral təsviri - 1874-cü il" kitabını bu kitabın davamı sayır və diqqəti XIX əsrdə Zəngəzurun siyasi, iqtisadi və demoqrafik vəziyyətini əks etdirən faktlara yönəldir. Nazir Əhmədlinin Azərbaycan tarixinin mənbəşünaslıq bazasının genişləndirilməsi baxımından mühüm töhfə sayılan bu kitabı Zəngəzur tarixini araşdıran tədqiqatçılarımız üçün olduqca dəyərli mənbə olacaqdır.

**Ramin Əlizadə,**
**AMEA Tarix İnstitutunun böyük elmi işçisi**

# "Yeni Yasamalda tikilən evlərin çoxu söküləcək"

Vüqar Tofiqli: "Bakıdakı tikinti anarxiyasının təməli 18 il əvvəl qoyulub"



**Xətai rayonunda, Xudu Məmmədov küçəsi ilə Gəncə prospektinin kəsişməsində yeni tikilən obyekt piyada səkisini qismən zəbt edib.**

Xətai Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov bildirib ki, həmin ərazidə əvvəllər yöndəmsiz ət məntəqəsi var idi: "Məntəqə sahibinə öz tikilisini müasir memarlığa və estetik normaya uyğun vəziyyətə gətirilməsi təklif olunur. O da bunu edib".

P.İmanov "müasir memarlığa uyğun" yenidən qurulan obyektin niyə kənarda tikilməsinə və bu zaman səkinin zəbt edilməsi səbəbinə aydınlıq gətirməyib.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsrafil Kərimov isə qeyd edib ki, BŞİH-nin tikintiyə icazə vermək səlahiyyəti yoxdur:

"2018-ci ildən bütün tikililərin layihəsini Bakı Şəhər Memarlıq və Şəhərsalma İdarəsi təsdiq edir. Yəqin ki, icazəni həmin qurum verib".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat katibi Ramiz İdrisoğlu isə açıqlamasında deyib ki, hər hansı tikili səkini zəbt edirsə, buna qarşı yerli icra hakimiyyəti və FHN-in aidiyyəti orqanı tərəfindən şəhərsalma və dövlət nəzarəti olmalıdır:

"Yerli səviyyədə şəhərsalma nəzarəti yerli icra hakimiyyətləri tərəfindən həyata keçirilir. Mövcud şəhərsalma nəzarəti qaydalarına əsasən, icralar tərəfindən öz ərazilərində təsdiqlənmiş planlaşdırma sənədlərinə riayət edilməklə tikinti işlərinin aparılmasına nəzarət edilməli və özbaşına tikililərin qarşısı alınmalıdır".

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında bildirib ki, Bakıdakı anarxiya 2000-2018-ci illər ərzində yaradılan layihələrin nəticəsindədir:**

"Bu gün də vətəndaşlar həmin 18 ilin əziyyətini çəkirlər. Prosesin hazırda davam etdiyini güman etmirəm. Çünki indiki şəraitdə müəyyən mənada Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bununla bağlı çox ciddi addımlar atıb. Ümumiyyətlə, dövlət səviyyəsində müvafiq işlər görülür ki, pərakəndəliyin, xaosun qarşısı alınsın. Məsələn, Yeni Yasamalda tikilən evlərin əksəriyyəti söküləcək. Tikinti zamanı nə layihəni təqdim edən şirkət, nə də onu reallaşdıran qurum diqqət yetirdiyi üçün evlər sıx tikilib. Amma bu gün bu məsələlərin həllində irəliləyişlər Şəhərsalma və Arxitektura Komitəsinə tapşırılıb. Ümid edirəm ki, prosesdən sonra müəyyən məsələlər öz həllini tapacaq".

**Sücayət Mehti**

## Vəfa Zeynalova plastik əməliyyat etdirib



**Əməkdar artist Vəfa Zeynalova plastik əməliyyat etdirdiyini etiraf edib.**

Aktrisa bu haqda "Şourum" proqramında danışıb. O bildirib ki, qöz qapaqlarındakı artıq əti kəsdirib:

"Gözümdə etdirdim. Göz qapaqlarını götürmüşəm. Üzdə olan xanımam, yüzlərlə, minlərlə tamaşaçı məni izləyir. Ona görə də çalışıram hər zaman formada qalım. Süniliyi çox sevmirəm, lazım olanda xırda toxunuşlar edə bilərəm".

### Elan

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2021-ci il tarixli 2449 nömrəli Sərəncamına əsasən Bakı şəhəri, Nəsimi Rayon İcra Hakimiyyətində mənzil növbəsinə dayanmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, habelə Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərdən aşağıda adı qeyd olunan imtiyazlı vətəndaşa Bakı şəhəri, Binəqədi rayonu Xocasən qəsəbəsi, Yeni Yaşayış məhəlləsində mənzil verilmişdir.

**Abbasov Nəsir Əli oğlu**

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri*

# Ailədə, məktəbdə, küçədə təbliğat görmürük

Şiddət görən insanlar hara müraciət edəcəklərini bilmirlər



**Paytaxtın Xəzər rayonu sakini 2017-ci il təvəllüdlü azyaşlının atası tərəfindən döyülməsi və ona əzab verilməsi ilə bağlı Xəzər Rayon Prokurorluğuna müraciət daxil olub. Müraciət əsasında araşdırma aparılıb. Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov bildirib ki, aparılmış araşdırmalarla atasının azyaşlını döyüb və sair zorakı hərəkətlərlə ona güclü fiziki ağrı, psixi iztirablar verdiyi məlum olub:**

"Azyaşlının sosial xidmət müəssisəsinə yerləşdirilməsi təmin edilib. Bundan başqa, araşdırmalarla müəyyən olunub ki, azyaşlının on altı yaşına çatmayan 2006-cı il təvəllüdlü bacısı isə qanunsuz olaraq nikaha daxil olub. Həmçinin, rayon prokurorluğunda aparılmış araşdırma ilə müəyyən edilib ki, 2021-ci ilin dekabr ayının sonlarında əri tərəfindən uşaqların anasının üzərinə qaynar su tökülərək qəsdən sağlamlığına az ağır dərəcəli hesab olunan xəsarət yetirilib". Faktlarla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət işi başlanılıb.



*"Ailədə şiddət görən şəxslərin müdafiə üçün polisdən başqa ümid yeri yoxdur və polis də ailə münaqişəsinə tam daxil ola bilmir"*

**Psixoloq Fərqanə Mehmanqızı ailələrdə baş verən belə şiddət hadisələrindən "Şərq"ə danışarkən bildirib ki, cəmiyyətdə ilk növbədə ciddi şəkildə maarifləndirmə işləri aparılmalıdır:**

"Bizim ailələrdə şiddətlə bağlı maarifləndirmə işləri zəifdir. Buna görə də ailələrdə qadınlar və uşaqlar şiddətlə qarşılaşdıqda hara müraciət etməli olduqlarını belə bilmirlər. Halbuki onların şiddətlə üzləşərkən müraciət etməsi üçün qaynar xətt mövcuddur. Gəlin, cəmiyyətdə sorğu keçirək.

Görək insanlar arasında neçə nəfər bu qaynar xətlə tanışdır. İnandırım sizi ki, insanların əksəriyyəti bundan xəbərsizdir.

Mənə maraqlıdır, bununla bağlı maarifləndirmə işləri harda aparılır. Məktəblərdə? Gedib məktəb müəllimlərindən soruşaq görək onlar özləri bunu bilirlərmi?! Bilmirlər. Təhsil Nazirliyinin hansı proqramında bu məsələyə yer ayrılıb?! Hansı məktəbli kitabında yazılıb ki, ailədə şiddət görən şagird bu qaynar xəttə müraciət etməlidir ?! Heç birində yazılmayıb. Bəlkə bununla bağlı küçələrdə, yollarda bukletlər paylanır. Amma mən görməmişəm".

**Psixoloqun fikrincə, hazırda ailədə şiddət görən şəxslərin müdafiə üçün polisdən başqa ümid yeri yoxdur və polis də ailə münaqişəsinə tam daxil ola bilmir:**

"Şiddət görən şəxs bölməyə gəlib ərizə yazır gedir. Əksər halda iş bununla da bitir. Bilirik ki, ailədə şiddət görən qadının həyat yoldaşını polisə şikayət etməsi bizim mental dəyərlərə ziddir. Amma polisdən öncə bu işlə məşğul ola biləcək QHT-lər, komitələr var axı.

Nəyə görə ailədə şiddət görən fərdlər polisə müraciət etməzdən əvvəl bu qurumlara, onlar üçün nəzərdə tutulan qaynar xəttə müraciət edib problemlərini demirlər?!".

F.Mehmanqızı bu istiqamətdə ciddi maarifləndirmə işlərinin aparılmayacağı təqdirdə belə halların sayının daha da artacağını diqqətə çatdırıb.

**Günəş Mərd**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

## Müğənni Zamiqin paylaşımı diqqət çəkib

"Övladı mülk almaqla xoşbəxt etmək olmur"



**Müğənni Zamiq Hüseynov sosial şəbəkə hesabında paylaşım edib.**

"Şərq"in məlumatına görə, müğənninin qeyd etdiyi sözlər "İnstagram" izləyicilərinin diqqətini çəkib.

"Allahın yaratdığı canlıları sevin, onlara silah çəkməyin, ov adı ilə məşədəki heyvanları qırmayın. Gün-gündən fəlakətlər artır, dünya Allahın qəzəbinə tuş gəlib. Ey insan oğlu, etmə-eləmə! Allahın yaratdığı canlıları öldürmə, onları sev ki, qoy övladlarımız gələcəkdə, ruhu təmiz, firavan, rahat xoşbəxt yaşasın... Övladının gələcəyini fikirləşmək - ona ev almaq, mülk buraxmaqla xoşbəxt etmək demək deyil. Onun gələcəyini xoşbəxt etmək üçün ona yaxşı təhsil ver, canlılara hörməti, sevgi, dürüstlüyü, səbr etməyi öyrət! Bax budur onların gələcəyi. İnan, o zaman sənə təşəkkür, ruhuna rəhmət oxuyacaqlar! Allahın yaratdığı bütün canlıları sev, qoy dünyamız gözəlləşsin"-, deyə o vurğulayıb.

**Aygün Tahir**

## "6 yaşlı qızım boşanmağıma dəstək oldu"

Aparıcı Zümrüd ailəsinin dağılmasından danışıb



**Aparıcı Zümrüd Bədəlova şəxsi həyatı ilə gündəmə gəlib.**

Rəqqasə Oksana Rəsulovanın "Bu ana kimi" proqramına qatılan aparıcı efirə qızı ilə birlikdə gəlib. Veriliş zamanı Zümrüd ailəsinin dağılmasından danışıb.

O, qızının daim ona dəstək olduğunu, hətta ailəsi dağılanda belə bunun qızının təşəbbüsü ilə olduğunu bildirib:

"Bizim ailəmizin dağılmağına, həyat yoldaşımdan ayrılmağıma məndə qızım həvəs yaratdı. Dedi ki, "Ana, münaqişələrə mənə görə dözməli deyilsən". 6 ya da 7 yaşı var idi. Özü öz əli ilə mənim çantamı yığdı".

# "Rusiyanın Qarabağa yatırımları iqtisadi maraqlara bağlıdır"

Razi Abbasbəyli: "Rus şirkətlərinin Qarabağa maraq göstərməsi Zəngəzur dəhlizinin açılması üçün mühüm əhəmiyyət kəsb edir"



**Azərbaycanın azad edilmiş ərazilərində artıq Rusiya şirkətləri işləyir. Bunu iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib.**

Onun sözlərinə görə, 20-yə yaxın Rusiya şirkəti azad edilmiş ərazilərdə fəaliyyət üçün maraq göstərib və onlardan bəziləri artıq işə başlayıb: "Azərbaycan və Udmurtiya ticarət münasibətlərinin genişləndirilməsinə xidmət edəcək tədbirlər planını müəyyən edib. Biz tədbirlər planları, yol xəritələri, iqtisadi inkişaf prioritetləri kimi məsələləri müzakirə etmişik".

Nazir müavini qeyd edib ki, investisiya layihələri və məlumat mübadiləsi mexanizmləri də müəyyən edilib.

*Rusiya şirkətlərinin Qarabağdakı fəaliyyəti Azərbaycana nə vəd edir?*

**Bu barədə "Şərq"ə danışan iqtisadçı Razi Abbasbəyli bildirib ki, Azərbaycanın ortaya qoyduğu tarixi siyasət prinsipləri region ölkələri ilə yanaşı orta və mərkəzi Asiya, Şərqi Avropaya çıxış üçün imkanlar yaradır:**

"Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Qazaxıstan və Rusiya üçün ciddi önəm kəsb edir. Bu baxımdan Rusiya şirkətlərinin Qarabağa maraq göstərməsi normaldır. Danışıqların növbəti mərhələsindən asılı olaraq Zəngəzur dəhlizinin istifadəyə verilməsi və iqtisadi layihələrin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad olunan bölgələrinə investisiya qoyması aqrar sənaye kompleksləri, turizm və logistik sahə üçün vacibdir. Rusiya iqtisadiyyatı üçün isə Mərkəzi Asiyaya və Şərqi Avropaya yeni çıxış imkanlarının yaranması səbəb olur.

Burada İran üçün də əhəmiyyətli məqamlar var. Çünki yolu qısalacaq.

İsrail şirkətlərinin azad olunan bölgələrə qoyduqları investisiyalar diplomatik və geosiyasi maraqlar baxımından önəmli idi. Ancaq Rusiyanın yatırımları birbaşa iqtisadi maraqlarla bağlıdır.

Rus şirkətlərinin Qarabağa maraq göstərməsi Zəngəzur dəhlizinin açılması üçün mühüm əhəmiyyət kəsb edir".

**İqtisadçının sözlərinə görə, Naxçıvan Muxtar Respublikası bu ticarət zəncirinin yaradılmasından sonra bir növ paytaxta çevriləcək:**

"Bu, Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. 2023-cü ilə qədər nəzərdə tutulan prioritetlərdə hələ rəsmi şəkildə açıqlanmasa da, ilkin hesablamalara görə, 60-70 milyard dollarlıq ticarət dövriyyəsindən söhbət gedir. Bu ticarət dövriyyəsinin mərkəzi dəhlizi Naxçıvan olacaq. Bura bir çox ölkələr üçün keçid rolunu oynayacaq. Bu baxımdan regionda ən çox qazanan Naxçıvan olacaq.

Proses daha çox Azərbaycanın xeyrinə davam edəcək. Zəngəzur dəhlizinin, dəmiryolu xəttinin və kommunikasiyaların açılması həm region, həm də qonşu ölkələr üçün kifayət qədər iqtisadi əhəmiyyət kəsb edir".

**Sənan İsmayıl**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 479



## “Futbolçu itinə görə məhkəmə qarşısına çıxarılıb

**İtaliyanın ”Milan” klubunun və Fransa millisinin futbolçusu Teo Ernandes iti ilə bağlı insidentlə əlaqədar məhkəmə qarşısına çıxarılıb.**

”Report” ”RMC Sport”a istinadən xəbər verir ki, 25 yaşlı müdafiəçinin saxladığı pitbul yaşlı qadının küçədə gəzdirdiyi iti dişləyərək öldürüb.

Qadın iti xilas etmək istəyərkən pitbul onun da üzərinə atılıb. İddiaya görə, adı açıqlanmayan şəxs şok keçirərək xəstəxanaya yerləşdirilib. O, futbolçuya qarşı qanuni tədbir görülməsini istəyib.

*Qeyd edək ki, Teo Ernandes bir müddət öncə ”Milan”la 2026-cı ilin yayınadək müqavilə imzalayıb.*

## “Atəş açmağa hazıram"

79 yaşlı qadın Ukraynanın mübarizə simvoluna çevrilib



**Ukraynalı mülki vətəndaşlar gözlənilən işğala qarşı ölkələrini müdafiə etmək üçün hərbi təlimlər alırlar.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, təlimlərdə müxtəlif yaş qruplarından olan insanlar iştirak edir. 79 yaşlı Valentina Konstantynovska da Ukraynanın mübarizə simvoluna çevrilib. AP agentliyinin çəkdiyi şəkillə məşhurlaşan yaşlı qadın mətbuata açıqlama verib. Konstantynovska bildirib ki, ölkəsini sona qədər müdafiə edəcək: ”2014-cü ildə böyük bir müharibə yaşadıq. Mariupolda uşaqlar həlak oldu. Yaralılarımıza belə kömək edə bilmədik. Burada ilkin tibbi yardımı öyrəndim. Özümü müdafiə etməyi öyrəndim. İndi atəş açmağa hazıram. Ölkəmi müdafiə edəcəyəm. Qadınlar və uşaqlar birlikdə bu barədə təhsil alıblar. Mənim məşhur olub-olmamağımın heç bir əhəmiyyəti yoxdur. Əsas olan Ukraynanın müstəqilliyidir”.

**Çimnaz Şahlar**



# Ümid işığı...

## Alzaymerin müalicəsində çox vacib bir irəliləyişə nail olunub





**Yapon alimlər pluripotent kök hüceyrələrdən ibarət beyin sinir hüceyrələri üzərində tədqiqat apararaq alzaymer xəstəliyinə meyilli insanların genetik özəlliklərini müəyyən edib.**

”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, yapon alimlər bu tədqiqat nəticəsində alzaymer xəstəliyinin müalicəsində çox vacib bir irəliləyişə nail olunacağına ümid edir. Məlumdur ki, alzaymer xəstəliyinin konkret müalicəsi hələ də yoxdur. Kyoto Universitetinin İPS Hüceyrələrini Araşdırma və Tətbiqetmə Mərkəzindən professor Haruhişa Inouenin rəhbərlik etdiyi alimlər qrupu hərəkətə gətirilmiş pluripotent kök hüceyrələrdən ibarət beyin sinir hüceyrələrini tədqiq edərək alzaymer xəstəliyinə meyilli insanların genetik özəlliklərini müəyyənləşdiriblər. Bu tədqiqatda alzaymer xəstəliyi diaqnozu qoyulmuş 102 nəfər iştirak edib. Tədqiqat nəticəsində xəstəliyə səbəb olduğu düşünülən anormal proteinlərə bağlı 496 kiçik gen mutasiyası müəyyən edilib, həmçinin anormal protein miqdarına nəzarət edən 8 gen də təsbit edilib. Bu tədqiqatlar xəstəliyin səbəblərinin üzə çıxacağına və müalicə üsullarının da önünün açılacağına inam yaradır. Yapon alimlər bu fikirdədir ki, hərəkətə gətirilmiş pluripotent kök hüceyrələrin dəri və ya qan hüceyrələrindən əldə edilərək erkən mərhələdə pluripotent hüceyrələrə çevrilə biləcək şəkildə proqramlaşdırılması mümkündür. Bu hüceyrələr müalicə məqsədilə hər hansı insan hüceyrəsinə çevrlə bilir. Alzaymer xəstəliyi beyin hüceyrələrinin getdikcə yox olmasına gətirib çıxaran neyroloji xəstəlik hesab edilir. Hazırda dünyada 50 milyona yaxın insan bu xəstəlikdən əziyyət çəkir. Xəstəlik insanlarda düşüncə, hafizə və davranış funksiyalarının azalmasına səbəb olur. Xəstəliyin yaranma səbəbi dəqiq bilinmədiyindən müalicəsi də çətindir.

**Məlahət**



## Van Dammın azərbaycanlı gəlini reklam siması olub

**Məşhur aktyor Jan-Klod Van Dammın azərbaycanlı gəlini Suada Hacızadə reklam siması olub.**

**Publika.az xəbər verir ki, musiqiçi məşhur geyim markası üçün kamera qarşısına keçib.**

**Qara geyimdə poza verən Suadanın fotoları instaqramda yayılıb.**

## Yaşı bilinmir

### Sosial media istifadəçiləri yaşlı şəxsi müzakirəyə çıxarıb



**Sosial mediada ”Ölümsüz türk” ləqəbi ilə tanınan şəxsin fotoları yayılıb.**

**Metbuat.az əbər verir ki, iddialara görə, türk olduğu iddia edilən şəxsin 399 yaşı var. Görüntülərin yayılmasından sonra yaşlı şəxsin qohumları açıqlama verib. Onlar bildiriblər ki, həmin şəxs türk deyil, tailandlıdır. Qohumların sözlərinə görə, həmin şəxsin 109 yaşı var.**

**Lakin bəzi sosial media istifadəçiləri yaşlı şəxsin qohumlarının yalan danışdığını irəli sürür. Yaşlı şəxsin rəsmi sənədlərdə dəqiq yaşının neçə olduğu məlum deyil.**

## 40-dan çox balıqçının olduğu buzlaq sahildən qopub



**Rusiyanın Xabarovsk diyarında üzərində balıqçıların olduğu iri buzlaq sahəsi sahildən qopub.**

**Trend-in məlumatına görə, bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyinin regional idarəsi bildirib.**

**Qeyd olunur ki, buzlağın üzərində 46 balıqçı və 24 avtomobil var. Hadisə yerinə xilasedici dəstə göndərilib.**

**Məlumatlara əsasən, axın buzlağı avtomobil yolunun olmadığı digər sahilə aparıb. Hadisə yerində təxliyə işləri aparılır.**



## 1 manatlıq şəfa çayı - 20 FAYDASI

**Cökə ağacı, xüsisən çiçəkləri 101 dərdin dərmanı hesab olunur. Cökə çiçəklərini (lipa adlanır) aptekdən, müalicəvi bitkilər satılan yerlərdən əldə edə bilərsiniz.**

Medicina.az tərkibi faydalı maddələrlə, xüsusən təbii salisilllə zəngin cökə çiçəyinin sağlamlığınıza 20 faydasını təqdim edir:

-Şişkinlik, ödem, qaşınmanı aradan qaldırır

-Orqanizmdə iltihabi ocaqları söndürür

-Tərqovucu, qızdırmasalıcı

-Tərkibində çox miqdar vitamin C, kalsiy, maqniy olduğundan immuniteti möhkəmləndirir

-Öskürəkdə yumşaldıcı, bəlğəmgətiricidir

- Həzmi yaxşılaşdırır

- Sinir, əsəb sistemini sakitləşdirir

- Qanda şəkəri salır

- Sidik yolları və kisəsi iltihabı və bakterial xəstəliyi müalicə edir

- Arıqladır, maddələr mübadiləsini aktivləşdirir

- Ağrıkəsici, spazmaqolikdir Müxtəlif baş ağrılarını, əzlə-oynaq ağrılarını sakitləşdirir

- Bu bitkini qadın çiçəyi də adlandırırlar, çünki bu çiçəklərdə fitohormonlar vardır ki, qadın hormonları ilə eynidir. Ona görə menstrual tsikl pozuntuları,hormonal disbalans, klimaks problemlərində cökə çiçəyi dəmləməsi içilməlidir.

- Kosmetoloji məqsədlə dəri gözəlləşdirici, cavanlaşdırıcı təsir göstərir.

- Cökə çiçəyi qanın axınını yaxşılaşdırır, ürək, damar, ağciyərləri aktivləşdirir

- Ağızda stomatit, parodontoz, iltihabda qarqara olunur

- Cökə çiçəklərindən şərab, mürəbbə, dəmləmə hazırlanır.

## "16 yaşlı Madonna" tənqid olundu



**Müğənni Madonna bu dəfə fotoları ilə gündəm olub.**

Axşam.az xəbər verir ki, 63 yaşlı ifaçı son günlər instaqram hesabında paylaşdığı şəkillərdə etdiyi fotoşoplarla diqqət çəkib. İzləyicilər özünü 16 yaşlı qıza bənzədən bu filtirlərinə görə onu tənqid ediblər.

İfaçının paparatsilər tərəfindən çəkilən fotoları ilə digər şəkilləri arasında müqayisə aparan izləyicilər onun ünvanına ”Bu Madonna deyil, bizə əsl üzün göstər”, ”16 yaşlı Madonna”, ”Filtirdən istifadə etməyi burax” kimi şərhlər yazıblar.

## Tarlasından 2 kiloqram "sərvət" tapdı

### Qramının qiyməti 60 dollardır



**Türkiyənin Dənizli bölgəsində tarlasından bölgəyə xas olmayan tünd rəngli fərqli quruluşuyla diqqət çəkən daş parçaları tapan Əli Urhan (54) nümunə götürüb, Ankara Universitetinin Araşdırma və Tətbiq Mərkəzinə (YEBİM) aparıb.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, araşdırma zamanı daşın 49 ayrı-ayrı element daşıdığı və meteorit ola biləcəyi təsbit edildi. Meteoritin qramının 60 dollar olduğunu bildirən Urhan indi özünü çox xoşbəxt hiss etdiyini söyləyir.

Daş parçalarının təxminən 2 kiloqram olduğunu və satmaq istədiyini söyləyən Əli Urhan bunları deyib:

”Testlərlə meteorit olduğunu sübut etdik. Meteorların alıcısı ümumiyyətlə xaricdə olur, mən də daşı satmaq istəyirəm.

Qramını təxminən 60 dollardan alırlar. Daşın təhlükəsizliyi üçün bankda kassa kirayəyə götürüb, orada saxlayacağam. Mənə dedilər ki, Bolqarıstana getməliyəm, alıcıları oradadır. Təhlükəsizliyimdən narahatlıq keçirib, getmədim”.

**Turan**

## “Botoksum belə yoxdur"

### Demet Özdemir: “Haradan vaxt tapa bilirəm ki, əməliyyat da etdirim?”



**Aktrisa Demet Özdemir estetik etdirməsi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.**

Axşam.az xəbər verir ki, aktrisa illər ərzində yaşla əlaqədar üzündə baş verən dəyişikliklərin hər hansı estetik əməliyyatla əlaqəli olmadığını vurğulayıb. O, artıq adının bu cür ittihamlarda hallanmasını istəmədiyini bildirib:

”9 ildir müxtəlif ekran işlərində rol alıram. Haradan vaxt tapa bilirəm ki, əməliyyat da etdirim? 16 yaşındakı məni götürüb 30 yaşımdakı halımla yan-yana qoyub müqayisə edirlər. Təbii ki, eyni deyil! Çox üstümə gəlirlər.

Kilo alıb verirəm. Qaşı belə alanda üzə təsir edir. Botoksum belə yoxdur. Mimikalardan çox istifadə edirəm. Rolumu canlandırarkən çətin olacağını düşünmürəm. 40 yaşıma qədər botoks etməyi düşünürəm. Sadəcə üz yoqası edirəm”.

*Qeyd edək ki, Demet müğənni Oğuzhan Koçla nişanlıdır.*